**Buludxan Xəlilov**

# *İSMAYIL ŞIXLININ ƏDƏBİ – TƏNQİDİ GÖRÜŞLƏRİ*

**Bakı – 2014**

**ELMİ REDAKTORU:**

**Himalay Qasımov,**
*filologiya üzrə elmlər doktoru, professor*

**RƏYÇİLƏR:**

**Nizaməddin Şəmsizadə,**
*filologiya üzrə elmlər doktoru, professor*

**Tərlan Novruzov,**
*filologiya üzrə elmlər doktoru, professor*

**Təyyar Salamoğlu,**
*filologiya üzrə elmlər doktoru, professor*

**Buludxan Xəlilov. "İsmayıl Şıxlının ədəbi – tənqidi görüşləri".** *Bakı, "Bakı Çap evi" nəşriyyatı, 2014, 120 səh.*

*Kitabda İsmayıl Şıxlının ədəbi – tənqidlə bağlı fikirləri, ədəbi prosesdə tənqidçinin oynadığı rol və digər məsələlər tədqiq olunur. Bundan başqa, İsmayıl Şıxlının ədəbi prosesdə fəallığı ilə seçilən yazıçı və şairlər barədə fikirləri araşdırılır. Şeir və nəsr əsəri yazmağın mahiyyətində hansı dəyərləri ölçüyə çevirməyin əhəmiyyəti nəzərə çatdırılır. Eyni zamanda İsmayıl Şıxlının dünya ədəbiyyatına dair ədəbi – tənqidi görüşlərindən bəhs olunur. Həm də İsmayıl Şıxlının "nəsr və zaman" məsələsi ilə bağlı mühakimələri, fikirləri nəzərdən qaçırılmır. İsmayıl Şıxlının ədəbi tənqidə tənqidi baxışı da mühüm cəhətlərdən biri kimi qiymətləndirilir.*

*Kitabdan ədəbiyyatşünaslar, ədəbi – tənqidlə məşğul olanlar, mütəxəssislər faydalana bilərlər.*

**ISBN 978-995-220-792-7**

© Buludxan Xəlilov

# Ədəbi proses və tənqidçi mövqeyi

İsmayıl Şıxlı tənqidə peşəkar bir səviyyədə yanaşır, onun vəziyyətini xüsusi olaraq təhlil edir, başlıca cəhətləri üzərində dayanırdı. O, ədəbi – tənqidin vəziyyətindən danışarkən iki başlıca cəhət barədə: "Birincisi, tənqidin özündən gələn qüsurlar, ikincisi, bu qüsurların törəməsinə səbəb olan şərait"[1] barədə dəqiq və konkret mühakimələr yürüdürdü.

Tənqid olmayan yerdə ədəbiyyatın inkişafından danışmaq əbəsdir. Məhz tənqidçilərin xidməti sayəsində ədəbiyyat inkişaf etmiş, ədəbi əsərlərin müsbət və mənfi cəhətləri açılmış, oxucu auditoriyası genişlənmiş, müəllif - ədib nüfuz sahibinə çevrilmişdir. Bu mənada İsmayıl

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.344

Şıxlı tənqid barədə aydın bir mövqe ortalığa qoyaraq yazırdı: "Tənqid ədəbiyyatın inkişaf və istiqamətlənməsində mühüm rol oynayan amillərdən biri və bəlkə də başlıcasıdır. Ədəbi təcrübə göstərir ki, bu və ya digər xalqın ədəbiyyatının dünyəvi əhəmiyyət qazanmasında böyük tənqidçilərin xidməti az olmamışdır. Bu məsələdə, heç şübhəsiz, ədəbiyyatla tənqid bir– birinə mütəqabil təsir göstərir. Böyük əsərlər böyük tənqidi fikirlərin yaranmasına səbəb olduğu kimi, böyük tənqidi zəkalar da bədii əsərlərdəki epoxal cəhətləri açır və bəzən yazıçının özünün belə şərh edə bilmədiyi problemləri tənqidçi qələmi aydınlaşdırır"[1].

Deməli, İsmayıl Şıxlı tənqidçinin xidmətlərinə önəm verməklə yanaşı, güclü bədii əsərin tənqidi fikrin geniş meydan almasına imkan yaratdığını da unutmurdu. Bir sözlə, İsmayıl Şıxlı ədəbiyyatla tənqidin bir – birinə təsirində hər iki tərəfin yüksək səviyyədə olmasına üstünlük verirdi.

İsmayıl Şıxlı hər şeydən əvvəl, tənqidçinin qarşısına müəyyən tələblər qoyurdu: "Mənə elə gəlir ki, hər şeydən əvvəl, tənqidçinin özünün böyük amalı və estetik tələbləri olmalıdır"[1]. Tənqidçi şərh etdiyinin, təhlil etdiyinin, tənqid etdiyinin fövqündə durmalıdır. Belə olmazsa, tənqidçinin fikir və mülahizələri inandırıcı görünməz. Tənqidçinin elmi – nəzəri səviyyəsi, amalı və estetik imkanları o qədər yüksəkdə olmalıdır ki, onun bədii əsərlərə yanaşma tərzi, hadisələrin mahiyyətinə varmaq imkanları meyara çevrilə bilsin. Belə olduqda tənqid öz missiyasını yerinə yetirir, ədəbi mühitin inkişafına xidmət edir, yaradıcılıq prosesini istiqamətləndirir. Bu mənada İsmayıl Şıxlı yazır: "Tənqidçi özü həyatımızda və zəmanəmizdə baş verən sosioloji proseslərin fəlsəfi əsaslarını araşdırmağa çalışan və bu hadisələrin şərhi fövqündə dayanan bir qüvvə olmalıdır. Bədii əsərlər tənqidçinin əlində fikir söyləmək üçün bir vasitəyə çevrilməlidir. Belə olduqda tənqidçi bədii yaradıcılıq prosesinə yüksək tələblə yanaşacaq və onda obyektivlik əsas meyar kimi istiqamətləndirici rol oynayacaqdır"[2].

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.344



[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.344
[2] Yenə orada. s.344

İsmayıl Şıxlı tənqidçiləri qruplara ayırır, bu qruplarda olan tənqidçiləri bir – birindən fərqləndirir. O, üç qrup tənqidçilərdən bəhs edir. Əlbəttə, o, tənqidçiləri üç qrupa ayıran zaman ədəbi mühitdəki, ədəbi prosesdəki vəziyyəti nəzərə alır, real və obyektiv münasibət bildirir. İsmayıl Şıxlıya görə birinci qrup "... tənqidçilərimizin bir qismi həyatda baş verən ictimai – siyasi prosesləri izləyir, yazıçı ilə bərabər yanır, ədəbi prosesə qaynayıb – qarışaraq, onun qüsurlarına qəzəblənir, müvəffəqiyyətlərinə sevinir, müsbət cəhətlərin inkişaf və istiqamətləndirilməsinə çalışır. Bu cür tənqid yüksək nəzəri səviyyədə olmaqla bərabər vətəndaşlıq ehtirası ilə daha da zənginləşir"[1]. Bu cür tənqidçilər – birinci qrup tənqidçilər kifayət qədər elmi – nəzəri hazırlığı olan tənqidçilərdir. Onlar müntəzəm olaraq ədəbi prosesi izləyir, ədəbi proseslə nəfəs alır, ədəbi prosesdəki uğurları və qüsurları vaxtlı – vaxtında təqdim edir, bununla da ədəbiyyata xidmət edirlər. Ədəbiyyatın və ədəbi prosesin bu cür tənqidə hər zaman ehtiyacı var. Ona görə ki, bu cür

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.344



tənqid təkcə tənqidin nəzəri səviyyəsinin yüksək olması ilə işini qurtarmır, həm də ədəbiyyatı yüksək bədii – estetik tələblər səviyyəsində görmək istəyir. Yazıçının uğurlarına yazıçının özü qədər sevinir, ona görə də yazıçıya geniş yollar açır, xüsusilə də, gənc ədibləri ruhlandırır, yaradıcılığın ən yüksək zirvəsinə doğru yüksəlməsi üçün müsbət enerji ilə təmin olunmasına imkan yaradır. İstedadlara qol – qanad verir, eyni zamanda ədəbi mühitdə obyektiv, qərəzsiz münasibətlərin yaranmasını gücləndirir.

İsmayıl Şıxlıya görə, "İkinci qrup tənqidçilər isə adi seyrçilərdirlər. Onları ədəbi prosesdəki problemlərdən daha çox meydana gələn əsərlərin miqdarı maraqlandırır. Bu cür tənqidçilər hesablayıcı maşın kimi hər şeyi qeyd edir, bütün yazıçılar, bütün əsərlər haqqında eyni soyuqqanlıqla, eyni qəliblərlə, standart və şablon ifadələrlə soyuq mühakimələr söyləyirlər. Bu cür tənqidin nə müəllifə, nə də ədəbi prosesə xeyri var"[1]. Doğrudan da bütün zamanlarda bu cür tənqid olub və olacaqdır. Əslində bu cür tənqid tən-

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.344-345

qiddən daha çox ədəbiyyat və ədəbi mühit barədə informasiya söyləyəndir. Bu informasiyanı təqdim edən tənqidçinin fikir və mülahizəsi təhlildən, analizdən, süjetlərin, obrazların obyektiv mühakiməsindən çox – çox uzaq olur. Ədəbi prosesə bu cür biganəlik ədəbi proses barədə donuq bir təsəvvür yaradır. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan ədəbiyyatının son iyirmi ildəki vəziyyəti həm də ədəbi tənqidin ona olan bu cür münasibəti ilə bağlıdır. Belə ki, ədəbi proses və ədəbi nümunələr barədə yalnız və yalnız informasiya vermək, dərin təhlil və analizdən uzaq dayanmaq ədəbi prosesdəki donuqluğu nümayiş etdirir. Halbuki bütövlükdə ədəbi proses donuq, durğun ola bilməz. Ədəbi proses barədə donuq, durğun vəziyyəti yaradan amillərdən biri də tənqidlə bağlıdır.

İsmayıl Şıxlıya görə, "... üçüncü qrup tənqidçilər də var ki, bunları ədəbi proses və bədii yaradıcılığın ümdə məsələləri yox, yazıçının avtoriteti maraqlandırır. Bu cür tənqidçilər yalnız ədəbi avtoritetlərə xidmət etməyə cəhd göstərir və bu ədəbi avtoritetlərin ən zəif əsərlərini belə şedevr kimi qiymətləndirirlər. Bunun da nəticəsində yalançı təriflər və yaltaq tənqidlər yaranır. Beləliklə də saxta etalonlar, toxunulmaz "müqəddəslər" meydana çıxır"[1]. Üçüncü qrupdan olan tənqidçilər ədəbi prosesin bütün mərhələlərində mövcud olub, indi də mövcuddur. Doğrudan da, bu qrup tənqidçilər yazıçının avtoritetini əsas götürərək onun yazdığı əsəri tənqidin obyektinə çevirir. Bəzən belə məqamlarda tənqidçi avtoritetin əsərinin lap aşağı səviyyədə olmasından asılı olmayaraq hörmət, izzət sahibinə çevrilir, tənqidçi avtoritet müəlliflər hesabına nüfuz qazanır. Avtoritet hesab olunan müəllifin əsəri zəif olsa da, avtoritetin kölgəsində tənqidçi yaşayır, fəaliyyət göstərir. Əlbəttə, "yalançı təriflər və yaltaq tənqidlər" belə yaranır. Nəticədə ədəbi proses barədə qeyri – obyektiv münasibət meydan alır, "saxta etalonlar", toxunulmaz "müqəddəslər" meydana çıxır"[2]. İsmayıl Şıxlı "saxta etalonlar", toxunulmaz "müqəddəslər" meydana çıxır" deməklə "Bu cür meylin obyektiv zərəri nədir?" sualına cavab axtarır. Axtardığı cavab nəsrimizdəki, şeirimizdəki vəziy-

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.345
[2] Yenə orada. s.345

yəti olduğu kimi təqdim edir. O yazır: "Son illərdə bizim istər bədii nəsrimizdə, istərsə də şeirimizdə çox istedadlı yazıçılar meydana gəlmişdir. Həmin yazıçıların yazdığı əsərlər bədii dəyəri cəhətdən respublikamızdan kənara çıxıb geniş ümumittifaq oxucularına çatdırıla bilər və ədəbiyyatımızın siqlətini gücləndirər. Lakin tənqid belə əsərlərin yanından çox zaman sükutla keçir. Çünki bu əsərlərin müəlliflərinin hələ ədəbi adı – sanı, vəzifələri, təsiredici rütbələri yoxdur. Əksər hallarda belə istedadlara qeyri – obyektiv münasibət bəslənir"[1]. Deməli, avtoritet hesab olunmayan ədiblərin əsərlərinin yanından diqqətsiz keçmək, həmin əsərlərin çapını sükutla qarşılamaq, həmin əsərlərə biganəlik göstərmək mövcud olub və olacaqdır.

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.345



# Ədəbi proses daim inkişafda olmalıdır

İstedad bir vergidir. Məsuliyyət və zəhmətkeşlik, həmişə axtarışda olmaq istedadı daha da zənginləşdirir. Bu işin bir tərəfidir, ikinci tərəfi isə odur ki, istedadın özünü də axtarıb üzə çıxarmaq lazımdır. Odur ki, istedadlı ədibin əsərini tənqidçi oxumalı və təhlil etməlidir, onun yaradıcılığına biganə qalmamalıdır.

Bəzən belə də olur ki, istedadlı bir ədibin yazdıqları tənqid olunur. Nəticədə istedadsızlar "etalona", "meyara", "nümunəyə" çevrilir. İsmayıl Şıxlının sözləri ilə desək "Ədəbi "etalonlar"dan hansınasa xidmət göstərmək, onların "əlçatmazlığını" saxlamaq naminə istedadla yazılmış əsərləri (tənqidçi – B.X.) əzişdirir ki, yollar açıq olsun"[1].

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.345

İsmayıl Şıxlı ədəbi prosesin mərhələlərinə diqqətlə yanaşır, ədəbiyyatda dərin kök salmış ədiblərin yaradıcılığını düzgün və ədalətli qiymətləndirir, bununla yanaşı, ədəbiyyatdakı irəliləyişləri də nəzərdən qaçırmır. Xüsusilə, ədəbiyyatşünaslıqda, dərsliklərdə kök salmış ədiblərin davamçılarını qeyd etməklə ədəbi prosesin daima inkişafda olduğunu göstərmişdir. Məsələn, "... öz povestləri, roman və ssenariləri ilə artıq ədəbiyyatımızda möhkəm mövqe qazanmış İsa Hüseynov, "Qarlı aşırım" adlı mürəkkəb xarakterli, ictimai və sosioloji proseslərlə zəngin olan, bədiyyatın tələblərinə cavab verən lakonik və gözəl roman müəllifi Fərman Kərimzadə, Əkrəm Əylisli, Anar kimi nasirlərimiz, Bəxtiyar Vahabzadə, Hüseyn Hüseynzadə (Hüseyn Arif – B.X.), Nəbi Xəzri, Qabil, Kürçaylı və s. kimi hələ həqiqi qiymətini lazımınca almamış şairlərimiz var. Əgər ədəbi tənqidimiz bunların arxasında dayansa, onların inkişafına əngəl törətməsə, "ağsaqqallardan" bunlara yol düşsə, ədəbiyyatımızın bədii siqləti nə qədər artar"[1].



İsmayıl Şıxlı yazıçıların əsərlərindəki zəif cəhətlər, lüzumsuz uzunçuluqlar barədə açıq, qətiyyətli fikir söyləməyi tənqidçilərin qarşısında mühüm vəzifə hesab edir. Odur ki, o tənqidi də, tənqidi dinləməyi də bir bacarıq sayır. Müstəqil fikirdən uzaq olanları tənqidçi kimi qiymətləndirmir. Özlərindən başqa, digərlərinə meydan verməyən ədiblərin fəaliyyətini ədəbiyyatımızın inkişafına maneçilik kimi təqdim edir. Bu barədə söylədiyi fikirlərin biri o birindən mənalı, məzmunlu və kəskin səslənir. Məsələn, "Tənqidi bacarmaq lazım olduğu kimi, tənqidi dinləməyi də bacarmaq lazımdır. Ancaq bizim yazıçılar mühitində tənqidi dinləmək və lazımi nəticə çıxartmaq qabiliyyətinə malik olmayanlar da çoxdur. Çox təəssüf ki, bu bəla ən çox tanınmış və ədəbi xidməti olan yazıçılara aiddir. Buraya onların vəzifələrini və imtiyazlarını da əlavə etsək mənzərə daha da

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.345-346

aydınlaşar. Belə yazıçılar bir qayda olaraq çox vaxt yaradıcılıqda geriləyirlər"[1].

İsmayıl Şıxlının tənqidçi və yazıçı barədə bu dedikləri bütün zamanlarda ədəbi tənqidin problemi olmuş və indi də belədir. Keçmiş nailiyyətindən arxayınlaşmaq, həmişə layiq olub – olmamasından asılı olmayaraq öndə olmaq, saxtakarlığı, yaltaqlığı ədəbi tənqidin meyarına çevirmək istəyində olanlar həmişə olub, indi də belədir. Məhz İsmayıl Şıxlı ədəbi – tənqidi görüşlərində bəzilərinə qarşı olduqca qətiyyətli və cəsarətli mövqe nümayiş etdirir. Ədəbiyyatda şəxsi mənfəət axtaranların haradan qidalanması səbəblərini də müəyyənləşdirməyə çalışır. O yazır: "Belə vəziyyətin törəmə səbəblərindən biri də, şübhəsiz, Yazıçılar İttifaqının rəhbərlərinin yanlış üsulla işləməsidir. Bizim yazıçılar təşkilatında açıq müzakirələrə, fikir mübadiləsinə, mübahisələrə imkan verilmir. Ayrı – ayrı əsərlərin, ədəbi problemlərin obyektiv müzakirəsi təşkil edilmir"[2]. Əlbəttə, ədəbi–bədii əsərin açıq müzakirəsi, müzakirə prosesində fikir mübadiləsinə

---

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.346

[2] Yenə orada. s.347



imkan verilməsi, bir sözlə, obyektiv müzakirə ədəbi prosesin inkişafına xidmət edir. Tənqidçinin də, yazıçının da, oxucunun da məsuliyyətini artırır. Nəticədə yüksək bədii keyfiyyətləri ilə seçilən əsərlər geniş meydan alır, yazıçının qiyməti düzgün dəyərləndirilir, tənqidçinin ümumən ədəbiyyatımızdakı rolu və mövqeyi bilinir. Ancaq bunu da qeyd etmək yerinə düşər ki, açıq, obyektiv müzakirələr, fikir mübadiləsi hər bir şeyin həlli demək deyilir. Bu, ədəbiyyatın və ədəbi mühitin taleyində mühüm amillərdən biridir. Ədəbi – bədii təcrübə göstərir ki, bəzən açıq, obyektiv müzakirələr və fikir mübadiləsi üçün hər cür şəraitin yaranmasına baxmayaraq, yenə də yalançı təriflər, saxtakarlıqdan, yaltaqlıqdan və şəxsi mənfəətdən qaynaqlanan mövqelər ədəbiyyatın, bütövlükdə ədəbi mühitin inkişafına maneçilik göstərir. Müqayisə üçün qeyd edək ki, çağdaş ədəbi mühitimizdə tənqid üçün hər cür şərait var. Qərəzsiz, obyektiv, açıq və aydın müzakirələrə geniş meydan var. Ancaq bu meydanda ədəbi mühiti müntəzəm şəkildə izləyən tənqid, müzakirə və fikir mübadiləsi yoxdur. Respublikada

çap olunan qəzet və jurnalların sayı indiki qədər çox olmamışdır. Ancaq bu qəzet və jurnallarda ədəbi tənqidin meydanı arzu olunan səviyyədə deyildir.

İsmayıl Şıxlı tənqidin vəziyyətini yaxşılaşdırmaq və obyektiv, qərəzsiz fikrə meydan vermək üçün qəzetlərin, jurnalların ədəbi prosesə qarışmasını vacib sayır, bu barədə belə bir mövqedə olur: "Son vaxtlar "Azərbaycan kommunisti" jurnalının ədəbi prosesə qarışmasını və yuxarı da dediyimiz "sükunəti" pozmaq cəhdini istisna etsək, qalan qəzetlərimiz susurlar. Bu isə xoşagəlməz hallarla nəticələnir. Nə üçün "Kommunist", "Bakiniski raboçi" qəzetləri ədəbiyyatımızı istiqamətləndirən kəskin məqalələrə öz səhifələrində yer verməsin?!"[1] Yeri gəlmişkən onu da qeyd edək ki, çağdaş ədəbi prosesi, ədəbi bədii nümunələri daha çox əks etdirən "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat", "Kaspi", "525-ci qəzet", "Kredo" və s. qəzetləridir. Bunlar ədəbi mühitimiz üçün hadisədir. Ancaq çox istərdik ki, bu mətbuat orqanlarının səhifələrində çağdaş ədəbiyyatımızı silkələyən tənqidi yazılar, ədəbi–bədii prosesi istiqamətləndirən məqalələr çap olunsun. Bu sıradan olanların azlığı mətbuat orqanının yox, ədəbi – tənqidin, tənqidçinin problemidir. Ədəbi–tənqidi və tənqidçini düşündürməli problemdir.

[1] Ədəbi tənqidimizin vəziyyəti haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.347

# Ədəbi proses və yaradıcılıq məsuliyyəti

İsmayıl Şıxlı nəsr aləmini, gənc nasirlərin mövzu rəngarəngliyini və eləcə də bir sıra vacib məsələləri təhlil edir, fikir, mülahizələrini bölüşürdü. O, bədii nəsr üçün ən zəruri şərhlərdən biri kimi "Dərin həyati müşahidə, hadisələri, insanları bütün təfərrüatı ilə öyrənmək və bunları dövrün ictimai məsələləri ilə, qabaqcıl ideyaları ilə üzvi bir vəhdətdə götürüb təsvir etmək"[1] bacarığını məsuliyyətə çevirməyə çalışırdı. O, gənc nasirlərə mövzu seçmək, seçilmiş mövzunu işləmək və onu həyat hadisələri ilə bağlamaq, bu həyat hadisələrini bədii yüksəkliyə qaldırmaq baxımından yanaşır və iki əsas xüsusiyyətin nəzərə çarpdığını qeyd edir.

[1] Gənc nasirlər haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.194



Bu mənada İsmayıl Şıxlı yazır: "Gənc nasirlərin əsərlərinə bu cəhətdən yanaşdıqda iki xüsusiyyət nəzərə çarpır: birincisi budur ki, onların bəzilərində həyat müşahidəsi zəngindir, təsvir vasitələri təbii və sadədir, ikincisi isə onların bəzilərində müşahidənin azlığı, tiplərin solğunluğu, dilin və hadisələrin süniliyidir"[1]. İsmayıl Şıxlı birinci qrup nasirlər sırasında Sabir Əhmədovun, Altay Məmmədovun, Tahir Hüseynovun və Nəriman Süleymanovun hekayələrini bədii cəhətdən zəngin hesab edir, onlarda sağlam yaradıcılıq eşqinin olduğunu söyləyir, yaratdıqları qəhrəmanların həyat tərzinin, fəaliyyətinin dolğunluğunu göstərir[2].

İsmayıl Şıxlı ikinci qrup nasirləri oxuduqlarını təqlid edənlər hesab edir. Beləlari özlərindən süjet xətti quraşdırır, süni şəkildə obrazlar yaradır, süni konfiliktlər düzəldir, mövzu və mövzudakı tiplər həyatdan götürülmədiyi üçün hər şey cansıxıcı olur. "Bu xüsusiyyətlər Rəhimə Zeynalova, Xalid Əlimirzəyev və

[1] Gənc nasirlər haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.195
[2] Yenə orada. s.196

Vasif Əfəndiyevin hekayələrində özünü daha qabarıq şəkildə göstərir"[1].

İsmayıl Şıxlı ədəbiyyata bir qrup sağlam nasirlərin gəldiyini görür, onların yaradıcılığını qiymətləndirirdi. Onların içərisindən gələcəkdə ən gözəl roman müəlliflərinin yetişəcəyinə inanırdı. Eyni zamanda gənc yazıçıların diqqət yetirəcəkləri keyfiyyəti də unutmurdu: "Gənc yazıçılar yadda saxlamalıdırlar ki, realist sənətdə təbiilik və səmimiyyət olmalıdır. Bu isə həyatı və insanları düzgün müşahidə etməklə yaradıla bilər"[2].

İsmayıl Şıxlı gənc nasirlərin dili ilə bağlı maraqlı fikirlər irəli sürür, onların dil və üslub xüsusiyyətlərinə orijinal münasibət bildirir: "Bəzi gənc nasirlər əsərin dilini, yaxşılığını ürəyə toxunan sözlərin çoxluğunda görürlər. Bu, tamamilə yanlışdır. Dilin gözəlliyi, hər şeydən əvvəl, onun sadəliyi təbiiliyindədir. Xalq ifadələrinin çox yerində işlədilməsindədir. Hər tipin xarakterinə, yaşına, sənətinə, uyğun fikir tərzini, ifadə formasını tapmaqdır"[3].

---

[1] Gənc nasirlər haqqında. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.196
[2] Yenə orada. s.204
[3] Yenə orada. s.203



İsmayıl Şıxlı ədəbiyyatda müasirlik məsələsinə çox ciddi yanaşır, bədii nəsrimizin materialları əsasında inandırıcı və əsaslı müqayisələr aparır, qənaətləri hesabına əsərlərin təhlilini verir.

O, müasirlik problemi və onun bədii ədəbiyyatda inikasından bəhs edərkən üç başlıca cəhəti qeyd edir. Hadisələr üç cür münasibətin üzərində xüsusi olaraq dayanır. "Bu münasibətlərin biri hər şeyi təsdiq edərək qeyd – şərtsiz qəbul etmək, ətrafımızda baş verən hadisələrin ictimai və fəlsəfi mahiyyətini dərk etmədən, bu və ya digər məsələnin törəməsinə səbəb olan sosioloji amilləri araşdırmadan, onun nə kimi əxlaqi keyfiyyətlərlə bağlı olması ilə maraqlanmadan bütün məsələlərlə razılaşmaqdan ibarətdir"[1]. İsmayıl Şıxlı bu cür həyat anlayışı üzərində yazılan əsərləri əhəmiyyətsiz əsərlər hesab edir. Ona görə ki, belə "... əsərlərin mərkəzində dərin ictimai konfliktlər, xarakterlər toqquşması, psixoloji gərginliklərlə dolu olan səhnələr dayanmır. Yazıçının özü və qəhrəmanları müstəqil düşüncə qabiliyyətindən məhrum olduqlarına

---

[1] Ədəbiyyatda müasirlik. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.322

görə oxucuya heç nə vermir, hər şey səthi, hər şey ötəri təsvir edilir"[1].

İsmayıl Şıxlı hadisələrə ikinci münasibəti hər şeyi şübhə altına almaq, hər şeyi inkar etməklə bağlayır. O yazır: "İkinci münasibət hər şeyi inkar etməkdən ibarətdir. Bu cür anlayışa malik olan yazıçılar (xoşbəxtlikdən belələri azdır və heç zaman ədəbi və ictimai fikrə təsir göstərə bilmir) aqnostizm silahını özlərinə qalxan edərək müasir həyatımızda baş verən bütün hadisələrə şübhə ilə yanaşırlar"[2]. Bütün dövrlərdə beləlәri olub və indi də vardır. Odur ki, İsmayıl Şıxlının bu münasibəti bütün zamanlar üçün özünü doğruldur.

İsmayıl Şıxlı bədii ədəbiyyatda hadisələrə üçüncü münasibəti – analitik münasibəti ən doğru, düzgün münasibət sayır. O, analitik münasibətlə bağlı nəyi nəzərdə tutduğunu aydın bir məntiqlə bildirir: "Analitik münasibət deyərkən nəyi nəzərdə tuturam? Məlum bir həqiqətdir ki, yazıçı hər şeydən əvvəl vətəndaş olmalıdır. Həm də ehtiraslı, öz torpağına, öz ölkəsinə bağlı olan, onun taleyi ilə daim

[1] Ədəbiyyatda müasirlik. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.322
[2] Yenə orada. s.322



maraqlanan, daim narahatlıq keçirən, daim düşünən, daim çətinliklərdən çıxış yolu axtaran, qüsurlara qarşı amansız bir ehtirasla çarpışan, öz estetik amalı uğrunda vuruşarkən özünü belə unudan fədakar bir vətəndaş olmalıdır. Yazıçı həyatımızın inkişafına kömək etməlidir"[1]. Bu baxımdan o, Azərbaycan sovet nəsrinə nəzər salır və nəsrimizdə hadisələrə analitik münasibətin qabarıq şəkildə özünü göstərdiyini qeyd edir. Azərbaycan sovet nəsrində nasirlərin bir çoxunun əsərlərində hadisələrin siyasi, psixoloji təhlilinin verildiyi, hadisələrin xarakteri və yaranma səbəblərinin düzgün müəyyənləşdirildiyi açıqlanır. İsmayıl Şıxlı fikrini əsaslandırmaq üçün İsa Hüseynovun "Yanar ürək" romanından, "Tütək səsi", "Saz", "Kollu Koxa", "Quru budaq", "Şəppəli" kimi povestlərindən spesifik süjet xəttini təhlilə cəlb edir, onun nəsrimizdə xeyli irəliləyişlər yaratdığını nailiyyət kimi qiymətləndirir. Eyni zamanda Fərman Kərimzadənin "Qarlı aşırım" əsərini Azərbaycan nəsrinin nailiyyətləri hesab edir. İsmayıl Şıxlının fikrincə,

[1] Ədəbiyyatda müasirlik. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.322-323

Fərman Kərimzadənin romanı ("Qarlı aşırım") "... ehtiraslar və mürəkkəb xarakterlər romanıdır. Bu əsərdə Abbasqulubəy Şadlinski, Kərbəlayı İsmayıl, Qəmlo, Talıbov kimi bir – birinə bənzəməyən müxtəlif xarakterli, müxtəlif ehtiraslı surətlər yaradılmışdır. "Qarlı aşırım"ın üstün bir cəhəti də odur ki, buradakı surətlər hər cür sxematizm və şablondan uzaqdırlar. Müəllif çox ustalıqla ictimai səciyyə daşıyan hadisələri, ictimai xarakterləri milli xüsusiyyətlə bağlamışdır"[1].

İsmayıl Şıxlı "Qarlı aşırım" əsərindəki sinfi təbiətcə bir – birindən fərqlənən obrazlardakı milli cəhətləri elə dəqiq nəzərə alır ki, bununla milli xüsusiyyətlərin bütün məqamlarını aydın görmək olur. Bundan başqa, "Qarlı aşırım" romanının bədii dəyərini artıran cəhətlərdən birinin milli koloritə malik olmasıdır. Bu barədə İsmayıl Şıxlı yazır: "Romanın bədii dəyərini artıran bədii cəhətlərindən biri təkrarolunmaz dərəcədə milli koloritə malik olmasıdır. Buradakı insanlar təpədən dırnağa qədər milli insanlardır. Kərbəlayı İsmayıl ən ağır dəqiqədə, Arazı

[1] Ədəbiyyatda müasirlik. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.326



keçmək istərkən hamilə gəlini apara bilməyəcəyini dərk edir və onu mərdanəlik və kişiliyinə arxayın olduğu düşmənə etibar edir. Qapısına gələn düşməni geri qaytarmamaq kimi cəngavərlik milli xüsusiyyətlə birləşdikdə nəhəng ehtiras yaranır, düşmənin də əzəmiliyinə valeh olursan. Bax budur Fərmanın əsərinin bədii siqlətini artıran cəhət!"[1]

İsmayıl Şıxlı "Qarlı aşırım" romanı əsasında bir məsələyə də aydınlıq gətirir. Belə ki, müəllifin əsərinin qəhrəmanı və onu qəhrəman kimi təsdiq edən keyfiyyətlər. Bu məsələdə İsmayıl Şıxlı çox dəqiq və konkret şəkildə öz fikrini belə ifadə edir: "Onun (Fərman Kərimzadənin–B.X.) üstün bir cəhəti də budur ki, qəhrəmanı var. Mən bunu ona görə qeyd edirəm ki, bəzən romanın qəhrəmansız janra çevriləcəyi fikrinə təsadüf edirik. Mən isə qəhrəmansız romanı təsəvvürümdə canlandıra bilmirəm. Nəinki baş qəhrəmansız roman ola bilməz, heç qəhrəmansız nasir də ola bilməz. Bədbəxt o nasirdir ki, kitablarının sayı çoxdur, ancaq yadda qalan qəhrəmanı yoxdur!"[2]

[1] Ədəbiyyatda müasirlik. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, . s.326
[2] Yenə orada. s.326-327

İsmayıl Şıxlı ədəbiyyatda müasirlik məsələsinə mövqeyini bildirərkən müasir mövzular və tarixi mövzular məsələsinə də toxunur, burada yazıçının düzgün mövqe tutmasını, məsələyə həssas yanaşmasını, prosesləri və hadisələri düzgün dərk etməsini bir axtarış kimi qiymətləndirir. "Müasir məsələlərdən yazmaq tarixi mövzularda əsər yazmaqdan xeyli fərqlidir. Bu fərq birinci növbədə ondan ibarətdir ki, tarixi mövzulardan yazan yazıçı nisbətən tamamlanmış, artıq müəyyənləşmiş hadisələrdən bəhs edir, müasir mövzudan yazan yazıçı isə hələ davam etməkdə olan prosesləri qələmə alır. Bu prosesin düzgün bədii inikasını vermək yazıçıdan uzaqgörənlik və həssaslıq tələb edir"[1]. Müasir mövzulara münasibətdə müasirliyin çətin olduğunu bilir və bu bildiyini həssaslıqla ifadə edir: "Müasir mövzuda nəsr əsərləri yazmaq geoloji axtarışlara bənzəyir. Burada büdrəmələr da ola bilər, qazılan quyu neft verməyə də bilər. Buna görə axtarışı dayandırmaq olmaz. Çünki müasirlik həmişə yeni axtarışlarla vəhdətdə olmuşdur"[2].

---

[1] Ədəbiyyatda müasirlik. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.327
[2] Yenə orada. s.327



İsmayıl Şıxlı ürəklərə yol tapmaq üçün, oxucuların məhəbbətini qazanmaq üçün yaxşı yazmağı, məhz yaxşı yazmağı əsas məsələlərdən biri hesab edir. Bunun üçün yazıçı, şair müdrik olmalı, üzaqgörənliklə hadisələri qələmə almalıdır. O, oxuculara təqdim edəcəyi əsərin məsuliyyətini dərindən dərk etməli, hadisələrə analitik münasibətlə yanaşmalı, beyinlərə, ürəklərə təsir edə biləcək bütün imkan və vasitələrdən istifadə etməlidir. Ona görə də şair, yazıçı özünü tapana qədər axtarışda olmalıdır. O, özünü şeirdə, yaxud da nəsrdə tapa bilmirsə, onda oxucuların hissi ilə oynayacaq, onların tələbləri ilə ayaqlaşa bilməyəcəkdir.

İsmayıl Şıxlı adətən gəncliyin ədəbiyyata gəlişində şeirə marağın üstün olduğunu qeyd edir. O yazır: "Adətən insan, gənclik illərində qəlbində doğan duyğuları poetik vasitələrlə ifadə etməyə çalışır. O hər yerdə və hər hadisədə şeriyyət axtarır. Bu təbiidir. Çünki əslində gənclik özü şeriyyət deməkdir. Lakin bu həyati şeiriyyəti poetik vüsətlə vermək üçün təbii və böyük istedad lazımdır. Həyatın şeiriyyətini nəsrlə də vermək mümkündür, nəzmlə də. Lakin bir şərtlə: istedad

təbii olmalıdır. Qafiyə kasadlığı çəkməklə, fikir yoxsulluğunun əlində həlak olmaqla yaxşı əsər yazmaq olmaz. Necə deyərlər, şair olmaq üçün şeir yazmaq, nasir olmaq xatirinə kağız qaralamaq boş zəhmətdir”[1].

İsmayıl Şıxlı şeir və nəsr əsəri yazmağın mahiyyətində hansı dəyərləri ölçüyə çevirməyin vacibliyini nəzərə çatdırmaq üçün özünün həyat yolundan, sənət yolundan nümunələr gətirməyə üstünlük verir, bununla da qarşı tərəflə münasibətdə səmimi bir körpü yaradır. Belə ki, İsmayıl Şıxlı əvvəlcə şeirə maraq göstərdiyini, sonra isə bu ötəri həvəsin ötüb keçdiyini, nəsrin imkanlarının geniş olduğunu dərk edərək nasir olmağa çalışdığını və bununla da düz yol seçdiyini qeyd edir[2].

İsmayıl Şıxlı sənətdə zahiri cəhəti axtarmağı acizlik saymış, yazıçının, şairin, sənətkarın uğur qazanmasında məsuliyyət hissini meyar hesab etmişdir. Həyat yolu, sənətkar yolu, eləcə də niyyəti düzgün olduğu üçün çəkinmədən özü - özünü təhlilə cəlb edərək yazmışdır: “Hadisənin daxili dramatizmini açmaqda

[1] Ürəklərə yol tapmalı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.351
[2] Yenə orada. s.351



çətinlik çəkdiyimə görə təsiredici ifadələr, “şairanə” sözlər axtarmışam. Əlbəttə, bu zəiflik əlamətidir. Mən bu qənaətə gəlmişəm ki, sənətdə zahiri effekt axtarmaq ancaq acizlik əlamətidir. Mən hər hansı bir sənəti seçərkən, hər hansı bir peşəyə sahiblənərkən insanlarda məsuliyyət hissinin güclü olmasını əsas meyar kimi qəbul etməyi vacib bilirəm. Yaradıcılıq aləminin adamlarında isə bu məsuliyyət hissi birə - on qat güclü olmalıdır”[1].

Yazıçı əsəri, şair şeiri təkbaşına yazır, ancaq bu yazılanlar ümumxalqın malı olması üçün müxtəlif proseslərdən üzüağ çıxmalıdır. Belə ki, şair, yazıçı yazdıqlarını dəfələrlə ölçüb - biçməlidir. Böyük məsuliyyət hissi ilə yanaşaraq yazdıqlarının üzərində dəfələrlə işləməlidir. Yazılmış əsər üzərində bütün işlər çapa qədər görülüb qurtarmalıdır. Bu mənada İsmayıl Şıxlı nəyi təqdir etdiyini, nəyi inkar etdiyini çox dəqiq və dürüst bilməklə yanaşı, onu dəqiq və dürüst şəkildə təqdim etməyi də ustalıqla bacarır. Fikir verək: “Yazıçı müdrik olmağa çalışmalıdır. Oxucular onun fikir ziyasından

[1] Ürəklərə yol tapmalı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980,. s.351

azacıq da olsa işıqlanmaq istəyirlər. Onlar yazıçıya ideal fikirlər carçısı kimi baxırlar, məhz buna görə də yazıçı hər sözünə, hər əsərinə, hər hərəkətinə böyük məsuliyyət hissi ilə baxmalıdır. O, əsərini oxuculara təqdim edənə qədər onun üzərində dönə-dönə işləməlidir"[1]. Yaxud: "Mən əsəri oxuculara təqdim edildikdən sonra onu dönə - dönə işləməyin, yeni – yeni variantlar yazmağın əleyhinəyəm. Bütün bu proseslər mümkün qədər çapa qədər baş verməlidir"[2].

İsmayıl Şıxlı istedadlı gənclərin yaradıcılığı ilə bağlı maraqlı fikir söyləyir, məsləhətlər verir. Bununla bir növ ədəbiyyata gələn istedadlı gəncləri məsuliyyətli olmağa çağırır, eyni zamanda onların yaxşı əsər nümunələri yaratmasını müqəddəs borc kimi nəzərlərinə çatdırır. İsmayıl Şıxlının gənc istedadlara verdiyi məsləhətlərin tezisi bunlardır: "... mən gənclərə məsləhət görərdim ki, həmişə yaxşı nümunələri əsas götürsünlər"[3], "Gənc yazıçılar ilk növbədə onların əsas silahı olacaq dili mükəmməl öyrənmə-

[1] Ürəklərə yol tapmalı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.352
[2] Yenə orada. s.352
[3] Yenə orada. s.353



lidirlər. Bizim Azərbaycan dilinin zəngin poetik imkanlarından istifadə etməlidirlər. Sadəliklə adiliyi seçə bilməlidirlər. Elə ifadələr tapmalıdırlar ki, hər sözün özündə belə daxili dramatizm olsun. Ancaq çox vaxt dilin adi axınını duymayan, qrammatik qaydaları belə bilməyən adamların roman və povestlərinə rast gəlirik. Bəzən belə hallar da olur ki, hər şey yerindədir, ancaq əsərin emosional təsir gücü hiss edilmir. Kəlmələr ölü olur"[1].

İsmayıl Şıxlı axtarışda olan və bu yolda narahatlıq hissindən məhrum olan gənc istedadlara da yol göstərir. Təkcə istedadına arxayın olmaqla yazıb yaratmağı məqbul saymır. Belə hesab edir ki, təkcə istedadına arxayın olanlar "müasir tələblərlə ayaqlaşa bilməz"[2].

İsmayıl Şıxlı yazılan bədii əsərlərin bir qüsurunu da təhkiyəçilik ilə bağlayır, təhkiyəçiliyin hadisələrin dramatik təsvirini, psixoloji vəziyyətləri göstərməməsini, xarakterlərin açılmaq imkanını məhdudlaşdırmasını vacib bir fikir kimi söyləyir. Yalnız sözə yox, həm də təsvirə, məhz təsvir vasitəsilə qəhrəmanın özünəməx-

[1] Ürəklərə yol tapmalı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.353
[2] Yenə orada. s.353

sus keyfiyyətlərinin açılmasına üstünlük verir. İsmayıl Şıxlı yazır: "Əgər qəhrəmanın qoçaqdırsa, sözlə yox, təsvirlə göstərməlisən. Belə olduqda hadisələr də, insanlar da canlı çıxacaq və emosional təsir gücü çox olacaq"[1].

İsmayıl Şıxlı ədəbi mühitə həssas münasibət bəsləyən ədib kimi ayrı – ayrı yazıçı və şairlər barədə fikirlər söyləyir, bir növ ədəbiyyatın real vəziyyətini təhlil etməyə çalışır. Məsələn, o, Məmməd Aranlı barədə oxucuda təsəvvür yaratmaq üçün bütün imkanlardan istifadə edir, ömrü az olan, lakin ömrünün hər ilini, ayını, gününü mənalı yaşayan Məmməd Aranlı barədə yazır: "Biz bir məktəbdə oxuyurduq. Hər ikimiz V.İ.Lenin adına APİ-nin (indiki ADPU-nun – B.X.) ədəbiyyat fakültəsinin tələbəsiydik. Məmməd Aranlı məndən bir kurs aşağı idi. Mən onun özü ilə tanış olmazdan xeyli əvvəl qəzet və jurnallarda çıxan şeirlərini oxumuşdum. Məmməd Aranlı hələ Bakı Pedaqoji məktəbində oxuyarkən şeirlər yazırdı. O vaxt o özünə təxəllüs götürməmişdi. Əsərlərinin altından "Ağazadə Məm-

[1] Ürəklərə yol tapmalı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980,. s.353



məd" deyə imza atırdı. 1938-ci ildə, ali məktəbə daxil olduqdan sonra isə Məmmədin nəsrə həvəsi çoxaldı. Onun hekayələri çap olundu. Özünə "Aranlı" təxəllüsü götürdü"[1].

İsmayıl Şıxlı Məmməd Aranlı barədə elə səmimiyyət, geniş ürək və səxavət göstərərək bəhs edir ki, oxucu bununla İsmayıl Şıxlının böyüklüyünə hörmət və ehtiram bəsləməli olur. Ədəbiyyat, ədəbi mühit də səxavəti və xeyirxahlığı tələb edir. Ancaq səxavət və xeyirxahlıq həddində, lazımi səviyyəsində olmalıdır. O, nə həddindən artıq olmamalıdır, nə də həddindən aşağı olmamalıdır. Hər ikisi obyektivliyə kölgə salır, ədəbiyyatın və ədəbi mühitin ziyanına işləyir. Bu mənada İsmayıl Şıxlının Məmməd Aranlı barədə səxavətli və xeyirxah fikirləri öz həddində, lazımi səviyyəsində olduğundan obyektiv səslənir, bu fikirləri oxuyanın hər birinin qəlbinə yol tapır. Fikir verək: " O vaxt mən də (İsmayıl Şıxlı – B.X.) arabir şeir və hekayələr yazırdım. Lakin meydana çıxmağa qorxurdum. Məmməd Aranlı isə məşhur idi, bilmirsən

[1] Məmməd Aranlı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.48

gənc şairlərin azlığından idi, yoxsa o zaman şair olmaq istəyənlərin özlərini nümunəvi aparmalarından idi, nədənsə, tələbələr gənc şairləri çox sevirdilər. Öz şair – tələbə yoldaşlarının yelinə uçurdular. Tənəffüslərdə institutun foyesində gəzişərkən hamı gizlicə onlara baxırdı. Onlarla yaxından tanış olmaq, bir – iki kəlmə söhbət etmək çoxumuzun arzusu idi. Yaxşı yadımdadır, o zaman APİ-nin (indiki ADPU-nun – B.X.) böyük bir şair dəstəsi var idi. Böyükağa Qasımzadə, Tələt Əyyubov, Zeynal Cabbarzadə, Ənvər Əlibəyli, Həsən Qasımov, Nazim Sultanov, Teymur Əhmədli, Mirrəhim Ələsgərli, Sona Məmmədova qəzet və jurnallarda tez – tez çıxış edirdilər. Məmməd Aranlı da onların sırasında idi"[1].

İsmayıl Şıxlı Məmməd Aranlının 1937-1940-cı illərdə yazdığı "Fırtına", "Sevgi", "Baş tutmadı", "Görüş", "Son görüş", "Aşığın dərdi", "İzabella" adlı hekayələrini təhlil edir, onun kəskin süjet qurmağa qadir olduğunu söyləyir, qəhrəmanlarının arzu, istək və məslək uğrunda psixoloji vəziyyətlərinin bütün məqam-

[1] Məmməd Aranlı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.48



larını təsvir etmək qabiliyyətinə malik olduğunu qeyd edir. "Məmməd Aranlı yaradıcılığa başladığı andan günün aktual məsələləri ilə maraqlanmışdır. Onun mövzuları və təsvir etdiyi surətlər rəngarəng idi"[1].

İsmayıl Şıxlı həyat hadisələrini çox gözəl, müasir tələblərə uyğun təsvir etməyi bacaran Əbülhəsənin ədəbi fəaliyyətini yüksək qiymətləndirir. Onu mövzular axtarışının "ilk təşəbbüskarı" hesab edir. İstər mövzu, istərsə də ədəbi mühitdəki rolu baxımından onu təzə iz salan, çığır salan, özünəməxsus yolu olan sənətkar kimi qiymətləndirir. İsmayıl Şıxlıya görə, Əbülhəsən gördüyü, müşahidə etdiyi adamların surətini yaradarkən, məharətlə ümumiləşdirmələr aparır, mürəkkəb məsələləri, ziddiyyətli xarakterləri, ictimai problemləri, psixoloji sarsıntıları ustalıqla verməyi, təsvir etməyi bacaran nasir kimi xarakterizə olunur. Əbülhəsənin "Yoxuşlar", "Dünya qopur", "Dostluq qalası", "Tamaşa qarının nəvələri" əsərlərini nəsrimizin nailiyyətləri hesab edir. Hətta bu əsərlərin çoxunu birnəfəsə oxuduğunu

[1] Məmməd Aranlı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.49

etiraf edir. Məsələn, "Tamaşa qarının nəvələri" əsəri. Bu əsəri birnəfəsə oxumağa vadar edər nədir? Əlbəttə ki, bəzi valideynlərin kölgə kimi övladlarının arxasınca sürünməsi, qapılar döyməsi, zorla onları irəliyə itələməsi. Təkcə bumu? Yox. Həm də bəzi valideynlərin övladlarının zehni və mənəvi zənginliyinə çalışmaması, müxtəlif yollarla, oğru – doğru yolla əldə etdikləri pulları onların cibinə doldurmaları və bununla da övladlarını şikəst etmələri, tərbiyələrini pozmaları, mənəvi cəhətdən müflis etmələri və s. Bax bu cür təhlükələr bütün zamanlarda cəmiyyətin problemi olmuşdur. Odur ki, Əbülhəsənin yazıçı duyumuna söz ola bilməz. Bu mənada İsmayıl Şıxlı Əbülhəsənin yazdıqlarına, o cümlədən "Tamaşa qarının nəvələri" əsərinə olan rəğbətini gizlətmir. Birnəfəsə "Azərbaycan" jurnalından oxuduğu "Tamaşa qarının nəvələri" əsəri barədə öz sevincini gecədən xeyli keçməsinə baxmayaraq İsa Hüseynovla bölüşür. İsmayıl Şıxlı yazır: "Yazıçı (Əbülhəsən – B.X.) hadisələri necə düzgün həll edirdi, bu əsəri necə də vaxtında yazmışdı! O yenə də hamını qabaqlamışdı.



Sevincimi kiminləsə bölüşmək ehtiyacı duydum. Dəstəyi götürüb İsa Hüseynovun nömrəsini yığdım.

- İsa, Tamaşa qarını oxumusanmı?
- Yenicə qurtarmışam. Sevindiyimdən söz tapa bilmirəm.
- Geyin, gedək.

Yarım saatdan sonra qapının zəngini basdıq. Əbülhəsən ev paltarında qarşımıza çıxdı. Çox təəccübləndi. Gözlənilmədən, vaxtsız gələn qonaqların məqsədini aydınlaşdırmaq istədi.

- Sizə öz minnətdarlığımızı bildirməyə gəlmişik.
- Nə münasibətlə?
- Təzə əsərinizə görə.
- O gülümsədi. İçəri keçdik.
- Yoldaşın nailiyyətinə sevinməmək olmaz.
- Çox təəssüf ki, bu hisslər indi bir az korlaşıb.

Söhbətimiz uzun çəkdi. Biz Əbülhəsən müəllimgildən çıxanda küçədə heç kəs yox idi..."[1].

İsmayıl Şıxlını hansı ədibin yaradıcılığı özünə cəlb edirsə, onu tərəddüd

[1] Məmməd Aranlı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980,. s.65

etmədən təhlil edir, məsələlərin təhlilinə ürəkdən yanaşır, mövqeyini dürüst şəkildə ortalığa qoyur, izahları və qeydləri isə məntiqli görünür. O, Mehdi Hüseyni "böyük fikir və amal uğrunda vuruşan, həmişə nəhəng ehtiraslı, mürəkkəb səciyyəli, yenilməz müsbət insan surəti yaratmağa çalışan sənətkar", dərin nəzəri biliyə malik, həmişə ədəbi mübarizələrin mərkəzində dayanan, sovet ədəbiyyatının məfkurə saflığı uğrunda yalnız nasir kimi deyil, həm də mübariz bir nəzəriyyəçi kimi vuruşan geniş əhatəli bir sənətkar"[1] hesab edir. Hər şeydən əvvəl İsmayıl Şıxlı Mehdi Hüseynin həm özünə, həm də əsərlərinə dərindən bələd olan bir qələm əhli idi. Ona görə də İsmayıl Şıxlının istər 1966-ci ildə yazdığı "Mehdi Hüseyn" məqaləsində, istərsə də 1967-ci ildə yazdığı "Qranit kimi sərt" xatirə yazısında Mehdi Hüseynlə bağlı hər bir söz, hər bir sətir, hər bir cümlə səmimi və təbiidir. Onu son mənzilə yola salan zaman keçirdikləri hisslər də, bu barədə yazdıqları da, eləcə də Mehdi Hüseynin yaradıcılığı barədə yazdıqları da. "Biz əklillərlə

[1] Mehdi Hüseyn. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.260



dolu olan maşında, tabutun yanında (Mehdi Hüseynin tabutu – B.X.) oturmuşduq. Onunla axırıncı dəfə yoldaşlıq edirdik. Zehnimiz bizə deyirdi ki, Mehdi Hüseyn artıq yoxdur, amma hisslərimiz ona bağlı idi. İnana bilmirdik. İnanmaq istəmirdik. İnanmaq çətin idi!

İsa Hüseynov tabutun baş tərəfində mənimlə üzbəüz oturmuşdu. Dirsəklərini dizinə, çənəsini isə əllərinə söykəmişdi. Barmaqlarının arasındakı papiros müştüyə qədər yanmışdı. O bundan xəbərsiz idi. Elə bil beli də azacıq əyilmişdi. Onu hələ belə məhzun görməmişdim. Hətta atası faciəli şəkildə həlak olanda da toxtaqlığını itirməmişdi.

Artıq son mənzilə yaxınlaşırdıq. Fəxri xiyabanın girəcəyinə çatanda hələ torpağı tamam yapıxmamış qəbrin baş tərəfindəki şəkil nəzərimizə çarpdı. Səməd Vurğun idi. O bizə baxırdı. Gülümsər gözlərində gizli bir kədər duyulurdu. Hiss olunurdu ki, ürəyi qubarlıdır. Baxışları isə dostunu danlayır ki, "Axı mən tələsdim, əlli yaşında dünyadan köçdüm, bəs sən nə tez gəldin?"

Deyirlər, biz məclisdə Üzeyir Hacıbəyov Müslüm Maqomayevin şərəfinə sağ-

lıq deyib. O deyib ki, mən Qoriyə, seminariyaya oxumağa getdim, dalımca gəldin. Mən musiqiyə həvəs göstərdim, dalımca gəldin. Mən Terequlovun qızını aldım, dalımca gəldin, bacanaq olduq. Mən opera yazdım, dalımca gəldin, yaxşı elədin. Amma bir xahişim var. Mən öləndə dalımca gəlmə!"[1]

Mehdi Hüseynin dəfn mərasimi ilə bağlı onun keçirdiyi hissləri bundan artıq, bundan təsirli, bundan emosional, bundan güclü necə ifadə etmək olardı.

İsmayıl Şıxlı Mehdi Hüseynin bütün həyat və yaradıcılıq yolunu təhlil edir. Onun ilk hekayələrindən – "Qoyun qırxını" (1927), 1930-cu ildə çap etdirdiyi "Xavər", "Bahar suları" adlı hekayələr kitabından, 1931-1935-ci illərdə yazdığı üç hissədən ibarət "Daşqın" romanından, 1935-ci ildə yazdığı "Kin" povestindən, 1937-1938-ci illərdə yazdığı "Tərlan" romanından və "Şair" kino – dramından, tarixi mövzuda 1939-1940-cı illərdə yazdığı "Komissar" povestindən və "Nizami" dramından, 1942-ci ildə yazdığı "Odlu qılınc", "Çiçəklər", "Dost", "Qanlı

[1] Qranit kimi sərt.- İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, .6-7



sular", "Satqın", "Vüsal", "Moskva" və s. kimi hekayə və oçerklərindən, 1943-1944-cü illərdə yazdığı "Cavanşir" adlı tarixi pyesindən, 1944-cü ildə yazdığı "Fəryad" pyesindən, 1947-1948-ci illərdə yazdığı "Abşeron" romanından, bu romanın davamı olaraq 1954-1958-ci illərdə yazdığı "Qara daşlar" romanından, 1949-1952-ci illərdə yazdığı "Səhər" romanından bəhs edir və onların hər birinin bədii cəhətdən dolğun əsərlər olduğunu məharətlə xarakterizə etmiş, müəllifin hər uğuruna və nailiyyətinə sevinmişdir.

İsmayıl Şıxlı Mehdi Hüseynin yaradıcılığının müəyyən bir hissəsinin ədəbi tənqidlə bağlı olduğunu nəzər alır və bu cəhətdən də onun yaradıcılığının böyük əhəmiyyətə malik olduğunu söyləyir. İsmayıl Şıxlı yazır: "Mehdi Hüseynin tənqidi də, bədii yaradıcılığı kimi həm əhatə etdiyi mövzu, həm də poetikası baxımından rəngarəngdir. Belə ki, o bir neçə ədəbi janrda əsər yazdığı kimi, tənqidin də müxtəlif sahələrinə əl atmışdır. Biz onun tənqidi əsərləri içərisində ədəbiyyat tarixinə, müasir ədəbi məsələlərə, teatr tənqidinə, aktyor sənəti haqqında mülahi-

zələrə, rus və dünya ədəbiyyatı barədə çox qiymətli fikirlərə rast gəlirik"[1].

İsmayıl Şıxlı Mehdi Hüseynin bir münəqqid və ədəbiyyatşünas kimi söylədiyi fikirləri iki yerə ayırır: birincisi, münaqişələr dövründə (1937-ci ilə qədər) söylənilən fikirlər, ikincisi, münaqişələrdən sonrakı dövrdə yaranan ədəbi – tənqidi mülahizələr[2]. Onun hər iki dövrdə yazdığı ədəbi – tənqidi məqalələri barədə düzgün mövqeyini bildirməklə yanaşı, ayrı – ayrı yazıçılar barədə yanlış mülahizələrini də diqqətdən qaçırmır. Ədəbi münaqişələr dövründə M.Hüseynin yazdığı ədəbi – tənqidi məqalələr müxtəlif məfkurə və fikirlərin çarpışması dövrünə təsadüf edir. Bu dövrdə kəskin konfliktlər özünü göstərir. İsmayıl Şıxlının fikrincə desək "Bu dövrdə "proletar ədəbiyyatı necə olmalıdır?", "hansı əsaslarla inkişaf etməlidir?", "keçmiş klassik irsə nə cür münasibət bəsləmək lazımdır?" kimi suallar bütün ədəbi ictimaiyyəti məşğul edirdi"[3]. Məhz belə bir dövrdə Mehdi Hüseyn onlarla məqaləsini və 1931-ci ildə

[1] Mehdi Hüseyn. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.285
[2] Yenə orada. s.285
[3] Yenə orada. s.286



"Ədəbi döyüşlər" kitabını yazmışdır. Bu məqalələrində və kitabında onun əsas məqsədi "proletar yazıçılarının ədəbiyyata gətirdiyi yeni adamları müdafiə etmək idi. Bu yeni insanlar fəhlələr, kəndlilər və sovet ziyalıları idi. Burjua ideoloqları belə adamların ədəbiyyata gətirilməsini itsəmirdilər"[1]. Tarixi təcrübə bu dövrün ədəbiyyatına müxtəlif münasibətləri üzə çıxardı. Bəziləri bu dövrün ədəbiyyatını inkar etməyə çalışdı, bəziləri müəyyən yanlış məqamları tənqid etdilər, bəziləri isə bu dövrün ədəbiyyatını inkar etməyə çalışdı, bəziləri müəyyən yanlış məqamları tənqid etdilər, bəziləri isə bu dövrü ədəbiyyat tarixinin bir mərhələsi kimi qəbul etdilər. Hər halda bu fikir və mövqe sahiblərinin məntiqi bir yana qalsın, bizcə, ədəbiyyat yeniliyə can atırsa, köhnəliklə vuruşursa, onda ədəbiyyatın bu işinə əngəl törətmək olmaz. Bu mənada Mehdi Hüseynin "Ədəbi döyüşləri"ni də düzgün qəbul etməli oluruq.

İsmayıl Şıxlıya görə Mehdi Hüseynin ədəbi – tənqidi görüşlərinin ikinci mərhələsi, dövrü 1938-ci ildən sonrakı fəaliyyəti

[1] Mehdi Hüseyn. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.286

ilə bağlıdır. Bu dövrdəki fəaliyyətində Mehdi Hüseynin tənqidçidən nə tələb etdiyini İsmayıl Şıxlı bir sistem halında təqdim edir. Məsələn, "Tənqid aydın və obyektiv olmalıdır. Çünki tənqidin məqsədi ədəbi inkişafımızda olan ayrı – ayrı qüsurları göstərib islah etməkdir"[1]. Yaxud: "Ən gözəl bədii əsər, həyatı tam mənası ilə dürüst göstərən əsərdir. Bu səbəbə görə də tənqidçi həyatla bədii əsəri tutuşdurub qiymətləndirməlidir"[2]. Bundan başqa, Mehdi Hüseynin tənqidin qərəzsiz olması barədə söylədiyi fikir də İsmayıl Şıxlıya görə, meyardır: "Əsasən haqsız və yanlış tənqidlər belə (əgər onun müəllifi müqəddəs bir qayə üçün çarpışırsa) ədəbi inkişafa mane ola bilməz. Əksinə, bəzən bu tənqidlər müəllifi – dramaturqu yeni – yeni fikirlər ətrafında müəyyən tədqiqlər aparmağa məcbur edir. Burasını da unutmamalıdır ki, ən istedadlı yazıçıları belə riyakar təriflər öldürə bilər. Əgər o gəncsə onu inkişafdan saxlaya bilər"[3].

---

[1] Mehdi Hüseyn. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.287
[2] Yenə orada. s.287
[3] Yenə orada. s.287



İsmayıl Şıxlı Mehdi Hüseynin ədəbi – tənqidində qiymətləndirdiyi bir cəhət də tənqiddə aydınlığın olmasıdır. Odur ki, Mehdi Hüseynin tənqiddən tələb etdiyi aydınlıq belədir: "Əgər tənqidin özü də izaha möhtac olsa, oxucuda təəccüb oyatsa və bir sıra yeni sualların çıxmasına səbəb olsa o heç vaxt xalqın qabaqcıl hissəsinin rəyini ifadə edə bilməz"[1].

İsmayıl Şıxlı Mehdi Hüseyni ədəbiyyatda realizmi ciddi müdafiə edən, mücərrəd romantik meyllərin əleyhinə olan, sosialist realizmi üslubunda əsər yazan sovet yazıçılarının hər birində özünəməxsus ifadə tərzinin və təsvir vasitələrinin olmasını zəruri hesab edən bir tənqidçi kimi xarakterizə edir[2].

İsmayıl Şıxlı Mehdi Hüseynin klassiklərimiz barədə söylədiyi qiymətli fikirləri əhəmiyyətli hesab edir. Mehdi Hüseynin söylədiyi bu fikri: "Əski ədəbiyyatı, klassik ədəbi irsi öyrənmək lazımdır. Lakin yeni ədəbiyyat yaratmaq üçün!.. Bizim üçün əski, klassik ədəbiyyat artıq məqsəd deyil, vasitədir"[3].

---

[1] Mehdi Hüseyn. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.287
[2] Yenə orada. s. 288-289
[3] Yenə orada. s. 291

İsmayıl Şıxlı Mehdi Hüseynin fəaliyyətinin – elmi, tənqidi, ictimai, bədii fəaliyyətinin bütün xüsusiyyətlərini ümumiləşdirərək yazır: "Hərtərəfli biliyə və geniş əhatəli yaradıcılığa malik olan Mehdi Hüseyn ədəbiyyatımızın ən məhsuldar və mübariz sənətkarlarından biridir. Onun bütün elmi, tənqidi fəaliyyəti, ictimai xidmətləri və bədii yaradıcılığı Azərbaycan sovet ədəbiyyatının təşəkkülü və inkişafı ilə elə bağlıdır ki, onsuz bu ədəbiyyatı təsəvvür etmək qeyri – mümkündür"[1].

İsmayıl Şıxlı Səməd Vurğunun ədəbiyyatımızdakı mövqeyindən, fəaliyyətindən və xidmətindən bəhs edərək "Səməd Vurğun yenə sıramızdadır" qənaətinin yüksək elmi – nəzəri səviyyədə açımını edir. Bu zaman Səməd Vurğunu və onun yaradıcılığını müxtəlif istiqamətdə açıqlayır, bu böyük insanın həqiqi qiymətini verməyə çalışır. O, yazır: "Hər hansı sənətkarın poetik qüdrətinin həqiqi qiymətini zaman verir. Aradan illər keçdikcə ona qarşı bəslənən subyektiv münasibətlər azalır, əleyhdarlar və tərəfdarlar

[1] Mehdi Hüseyn. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s. 293



sıradan çıxır, həyata yeni gələn obyektiv nəsil hər kəsi öz ləyaqətinə görə qiymətləndirir. Zamanın bu sınağından çıxmaq isə çox çətindir. Elə sənətkar olur ki, sağlığında şan – şöhrət qazansa da sonradan unudulur, eləsi də olur ki, əksinə, həqiqi qiymətini sonradan alır. Lakin başqa bir qrup poetik istedadlar da var ki, onlar həmişə ədəbiyyatın bayraqdarı olaraq qalırlar. Sevimli xalq şairimiz Səməd Vurğun məhz həmişə bayraqdar olan və qəlblərdə yaşayan ölməz sənətkarlardandır"[1].

Səməd Vurğunu illər bizdən uzaqlaşdırdıqca, o daha da bizə yaxınlaşır. Hələ onu da deyək ki, ictimai – siyasi həyatda çoxlu dəyişikliklərin olmasına baxmayaraq Səməd Vurğunun Azərbaycan ədəbiyyatında öz yeri var. O, ədəbiyyat tariximizdə, şeir tariximizdə elə bir istedaddır ki, onsuz Azərbaycan ədəbiyyatını təsəvvür etmək olmaz. O, söznən rəsm çəkən, söznən çələng toxuyan sənətkardır. Onun sözü oynatmaq qabiliyyəti Azərbaycan dilinin imkanlarının, məhz poetik imkanlarının üzə çıxmasında, dilimizin sevilməsində, dilimizin ruhunun və fəlsə-

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.293

fəsinin açılmasında müqayisəsiz və əvəzsizdir. Hətta ona qarşı yönəlmiş qərəzli münasibətlər, hədyanlar onun daha yaxşı tanınmasına imkan yaradır. Belə ki, Səməd Vurğun bütün zamanlarda oxunmalı və təhlil olunmalıdır. Səməd Vurğun bütün zamanların oxucusunun imtahanından, obyektiv tənqidin təhlilindən üzüağ çıxmağa hazır olan sənətkardır. Onun "Zamanın bayraqdarı" poemasındakı ikicə misra:

"İllər gəlib keçir ömürdən, illər.
İllər görməmişik bu illər kimi"

bir çox mətləblərdən xəbər verir, yazıldığı tarixi dövrün özünü ittiham edir. Səməd Vurğun sovet ideologiyasının tüğyan etdiyi bir vaxtda bundan artıq nə deyə bilərdi?! Yeri gəlmişkən onu da qeyd edək ki, tarixi şəxsiyyətlərə, ədiblərə, lap elə tarixin özünə qiymət verərkən təkcə bu günün nöqteyi-nəzərindən yanaşmaq düzgün deyil, bu, yanlış nəticələrə gətirib çıxarır.

İsmayıl Şıxlı Səməd Vurğunu bizə sevdirən və onu illər keçməsinə baxmayaraq bizə yaxınlaşdıran cəhətlərin məhvərində nəyin dayandığını aydınlaşdırmağa çalışır. O yazır: "Mən bunu, hər şeydən əvvəl,



onun (Səməd Vurğunun – B.X.) böyük ideallar və amallar şairi olması ilə izah edirəm. Səməd Vurğun bütün həyatı və yaradıcılığı boyu böyük məslək eşqi ilə yaşayıb yaratmışdır. Onun poetik talantı həmişə məhdudiyyətdən, xırda və cılız hisslərdən, ötəri və keçici şöhrət axtarışlarından uzaq olmuşdur. Səməd Vurğun elə bir amala xidmət etmişdir ki, bu amal bəşərin gələcəyi ilə bağlı olmuşdur"[1]. Böyük ideallar, amallar uğrunda o kəslər vuruşur ki, onların həyatı da, fəaliyyəti də zamanın, dövrün fövqündə dayanır. O, konkret bir zamanın, dövrün çərçivəsinə sığmır. Onun istedadı, məsləki konkret sərhəd tanımır. Talantlı və istedadlı olmaq onu xırda, cılız hisslərdən uzaqlaşdırır, ucalara, yüksəkliklərə aparır. Bu mənada Səməd Vurğun istedadlı şairdir, həmişə ucadadır, amal və məslək uğrunda mübarizə aparanlar cərgəsində öndədir.

İsmayıl Şıxlı Səməd Vurğunu sevdirən ikinci mühüm cəhət barədə yazır: "Səməd Vurğunun ikinci cəhəti onun böyük bir vətəndaş olmasıdır. Səməd Vurğun özünün poetik istedadını vətəndaşlıq idealla-

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.295

rına bağlamağı bacaran ustad bir sənətkardır. Biz onun bütün əsərlərində: istər tarixi dramlarında, istər lirik – epik poemalarında, fəlsəfi əsərlərində, siyasi lirikasında, publisist çıxışlarında, böyük bir vətəndaş qəlbinin, şair qəlbinin çırpındığını görürük" [1]. Doğrudan da, Səməd Vurğunun poetik istedadı vətəndaşlıq idealı və idealları ilə əlaqədardır. Biz hiss edirik ki, Səməd Vurğunun poetik istedadı onun yaradıcılığında yaşayır. Bu yaşamağa müxtəlif yanaşmalar ola bilər: birisi çırpınmaq deyə bilər, birisi nəfəs almaq deyə bilər – hərə bu cür yanaşmalarla Səməd Vurğunun vətəndaş şair olduğunu təsdiq etməkdən başqa bir şey deyə bilməz.

İsmayıl Şıxlı Səməd Vurğunu bizə sevdirən digər bir keyfiyyəti barədə yazır: "Səməd Vurğunu bir də ona görə sevirik ki, o, təpədən dırnağa qədər xalqına bağlı olan, onu sevən, öz taleyini xalqının taleyinə bağlayan, onunla birgə nəfəs alan bir sənətkardır. Onun:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.295



Demək doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan.

şeirinin geniş yayılmasının, vətənə məhəbbət simfoniyasının leytmotivi kimi səslənməsinin sirri də şairin xalqına vurğunluğudur"[1].

Səməd Vurğunun poetik istedad sahibi olduğunu inkar etmək mümkün deyil. Onun qüdrətli poetik istedadı hər bir oxucunu, hər bir ədəbiyyat adamını özünə məftun edir. Səməd Vurğunun insana, xalqa, millətə məhəbbətinin böyüklüyünü heç nə ilə müqayisə etmək olmaz. Bəlkə onun poeziyasındakı sadəlik və təbiilik də onun xalqa bağlılığı ilə əlaqəlidir. Səməd Vurğunun tarixi mövzulara müraciəti də onun xalqa olan məhəbbəti, xalqın tarixi şəxsiyyətlərinə hörməti ilə bağlıdır. Odur ki, İsmayıl Şıxlı yazır: "Səməd Vurğun tarixi mövzularda əsər yazanda da bu günü, zamanın aktual məsələlərini nəzərdə tutur. O, "Vaqif", "Fərhad və Şirin" kimi pyeslərini yazarkən birinci növbədə xalqa məhəbbət hissini əsas götürmüşdür. O, ölkəmizin tarixinə

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.295

müraciət edərkən məhz elə dövrləri qələmə alır ki, bu dövrlər ictimai hadisələrlə zəngin olur, böyük xarakterlər yaranır, xalqın və tarixi şəxsiyyətlərin yüksək amalı, keyfiyyətləri meydana çıxır"[1].

Səməd Vurğun yaradıcılığında ümumiləşdirici cəhətlərdən biri də onun şeirlərinin fəlsəfəsidir. İsmayıl Şıxlının fikrincə desək: "O, Azərbaycan dilinin geniş imkanlarından istifadə edərək, ən adi təbiət təsvirlərində belə fəlsəfi ümumiləşdirmələrə gəlib çıxır. Biz bu fəlsəfi ümumiləşdirmələri şairin epik poemalarında, epik – lirik dastanlarında daha aydın görürük"[2].

Səməd Vurğun o qəbildən olan şairlərdəndir ki, onun şeirlərini çox asan yadda saxlamaq, əzbərləmək olur. O, dilimizin bütün imkanlarından məharətlə istifadə edir, onun şeirlərindəki təsvirlər o qədər inandırıcıdır ki, oxucunu sehirləyir, ovsunlayır. Səməd Vurğun söz vasitəsilə təsvir etdiyi hadisələrin rəsmini çəkir. Bu zaman onun boyası da, fırçası da söz olur. O söz ki həmin sözün fonetik quruluşunda, səs quruluşunda səslərin – samitərin və saitlərin düzülüşündə, sıralanmasında,

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.296
[2] Yenə orada. s.296



ahəng sistemində bir harmoniya, qayda – qanun olur. Bu həm də Səməd Vurğunun sözdən, dildən bacarıqla istifadə etmək qabiliyyətindən və istedadından xəbər verir. Bu qəbildən olan poeziya nümunələrində musiqi şeiriyyətin, şeirin özündə olur, şeirin özü ilə nəfəs alır. Şeirlə onun musiqisi bütöv bir tam halında görünür.

İsmayıl Şıxlı bu cəhətləri nəzərdən qaçırmadan yazır: "Səməd Vurğun şeirinin məziyyətlərindən biri də onun daxili ahəngdarlığa, şeir silsiləsinin, söz axınının musiqililiyə malik olmasıdır. Səməd Vurğun dilimizin oynaq imkanlarından, incə və zərif cəhətlərindən məharətlə istifadə etməyi bacaran sənətkardır. Əgər onun şeirlərinə fonetik cəhətdən diqqət yetirsək, sözlərin düzülüşündə incə və qalın saitlərin sıralanmasına belə fikir verdiyini görərik. Səməd Vurğun sözün ifadə etdiyi mənaya uyğun olaraq, saitlərin uzlaşmasına diqqət yetirir. Beləliklə də, onun şeirləri dilə tez yatır, asan əzbərlənir və musiqiyə yatımlı olur. Məhz buna görə də bəstəkarlarımızın çoxu şairin sözlərinə musiqi bəstələmişdir"[1].

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.296

İsmayıl Şıxlı İlyas Əfəndiyevi psixoloji ziddiyyəti və çarpışmaları əsərlərində ustalıqla əks etdirən yazıçı kimi səciyyələndirir. Onun "Unuda bilmirəm" pyesini geniş təhlil edir. Bu pyes barədə yazır: "Unuda bilmirəm" sırf psixoloji əsərdir. Müxtəlif səciyyəli insanların mənəviyyatındakı çarpışmalar, onların bir – biri ilə, yaxud özlərinin daxili ikilik və ziddiyyətləri ilə apardığı mübarizə əsərin aparıcı konfliktini təşkil edir. Bu mübarizələr sadə məişət məsələləri ilə məhdudlaşsa idi əsərin bədii siqləti azalardı. Lakin müəllif məişət məsələlərini günün və dövrün aktual hadisələri ilə çarpazlaşdırdığına görə əsərin təsir dairəsi genişlənmiş, məsələlər ailə çərçivəsindən çıxaraq siyasi məna kəsb etmişdir"[1].

İsmayıl Şıxlı "Unuda bilmirəm" pyesindəki Nərmin, Kamran, professor Möhsünzadə, Kərəm dayı, Səadət xanım, Cəmil obrazlarının daxili aləmini açır, onların ən incə, zərif cizgilərini tapır və təqdim edir. Hiss edirsən ki, İsmayıl Şıxlı bu obrazların təhlili zamanı yazıçı – vətəndaş mövqeyini və hissiyyatını gizlətmir. Bu obrazların bütün cəhətlərini məharətlə təhlil edir. Məsələn, Nərminin hamının sevimlisi olması təkcə ailəsinin, professor ailəsinin yeganəsi olmaq deyil, həm də onun təbiətindəki gözəlliklərdir. O, zərif, incə, təmiz, mehriban olmaqla yanaşı, həm də təbiətində düzlük və doğruluq var. Nərmin qəlbindəki arzuları süni şəkildə pərdələməyə çalışan bəzi meşşan təbiətli qızlardan deyil. O, çətinlik görməmiş bir həyat sürsə də, istəyir ki, daşlı – kəsəkli bir həyat yoluna çıxsın.

İsmayıl Şıxlı Nərminin bütün xüsusiyyətlərini üzə çıxarmaq üçün bu rolu ifadə edən Amalya Pənahovanın bir aktrisa kimi təbiiliyini də nəzərdən qaçırmır. Nərmini tamaşaçıya sevdirən həm də bu rolu oynayan Amalya Pənahovanın aktrisa istedadıdır. Aktrisanın özündəki ədalar, dilindəki ləhcə şirinliyi, sərbəstliyi Nərmin obrazını daha da cazibədar edir.

İsmayıl Şıxlı Kamran obrazının da özünəməxsus keyfiyyətlərini təhlil edir və bu təhlil prosesində Kamranın kimliyini məharətlə təqdim edir. Kamran öz bacarığı, zəhməti ilə yaşayan, heç kəsin qoltuğuna sığmayan adi bir tələbədir, gəncdir. Onun ən gözəl xüsusiyyətləri bunlardır:

[1] Hər şeydən əvvəl. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.297

mərddir, mətanətlidir, namusludur. O, sevgiyə də müqəddəs yanaşır. Çoxları kimi "səni sevirəm" kəlməsini işlədən deyil. Ancaq sevgiyə müqəddəs yanaşır, namuslu vətəndaş olmaq istəyir, həmişə cəmiyyətə xeyir vermək haqqında düşünür. O, yalançı millət qəhrəmanlarına nifrət edir. O, mənsəb, şöhrət üçün çalışanlara, başqasının kölgəsində gizlənənlərə qarşı barışmazdır. Başqasının qılığına girən, onlardan istifadə edib, sonra cəmiyyətdə inkişafa əngəl törədənlərə nifrət edir.

İsmayıl Şıxlı bu obrazın rolunu oynayan Həsən Turabovun aktyor məharətini də unutmur. Qeyd edir ki, Kamranı tamaşaçıya sevdirən həm də aktyorun səhnə davranışının, təmkininin, səbrinin yerində olmasıdır.

İsmayıl Şıxlı Kamranla Nərmin barədə yazır: "Demək, Kamranla Nərmin eyni cür düşünürlər. Onların həyata, insanlara münasibəti eynidir. Onların mənəvi yaxınlığı məhəbbətlərinə özül ola biləcəyi halda, bəs necə olur ki, bu iki gəncin yolu ayrılır?

Burada biz üçüncü bir surətlə tanış olmalıyıq. Elə bir surətlə ki, dramaturq onun timsalında əngəl olan bir zümrəni,



ailə və məişətimizdə kübarlaşma meyllərini vermişdir. Bu meylləri professor Möhsünzadənin arvadı, Nərminin anası Səadət xanım özündə cəmləşdirmişdir"[1].

Səadət xanım yalnız öz şəxsi mənafeyini və mənfəətini güdən bir qadındır. O, başqalarının arzu və istəyi ilə hesablaşmır. O Kamranla qızı arasında olan istəyi, məhəbbəti pozmaq üçün müxtəlif üsullardan istifadə edir. Səadət xanım Kamranı ona görə sevmir ki, Kamran onun qarşısında müti deyil, o, sərbəstdir. İsmayıl Şıxlı Səadət xanım obrazı barədə yazır: "Səadət xanım hiss edir ki, Kamran onun kürəkəni olsa da sərbəstliyini itirməyəcəkdir. Buna görə də Səadət xanım qızını Kamrandan uzaqlaşdırmaq istəyir. O, qızına deyir ki, "indi təkcə ali təhsillə uzağa getmək olmaz". Bu eyhamla Nərmini başa salmaq istəyir ki, Kamranı Bakıda aspiranturada saxlamaq lazımdır. Onu maraqlandıran elmdirmi? Bəlkə Səadət xanım Kamranın istedadını qoruyur? Qətiyyən. Səadət xanımı elm yox,

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.301

elmi ad və onun arxasınca gələ biləcək şöhrət və pul maraqlandırır"[1].

İsmayıl Şıxlı Səadət xanımın qızı Nərminə dediyi sözü yada salır: "Ondan sənə ər olmaz. Çünki o, Don Kixot kimi yel dəyirmanları ilə vuruşur". İsmayıl Şıxlı onu da qeyd edir ki, bu sözləri Səadət xanım obrazını oynayan Sofiya Bəsirzadə səhnədə elə söyləyir ki, tamaşaçılar namuslu adamların bu cür yaralanmasına qəzəblənirlər.

İsmayıl Şıxlı Səadət xanımın öz vicdanı ilə alver etdiyini nəzərə çatdırmaq üçün professor Möhsünzadə və Kərəm dayı obrazlarını da təhlilə cəlb edir. Bu iki obraz həm də ikiyə parçalanmış Azərbaycanın dərdlərini ürəklərində daşıyırlar. İsmayıl Şıxlı yazır: "Onlar Cənubi Azərbaycanda demokratik hərəkat boğulduqdan sonra vətəndən uzaq düşmüş qardaşlarımızı təmsil edirlər. Möhsünzadə də, Kərəm dayı da illər uzunu geri qayıtmaq həsrəti ilə yaşayırlar. Lakin Araz yolu kəsibdir. Onlar hələlik Arazın sahilində dayanıb o tərəfə tamaşa etməklə təsəlli tapırlar. Lakin onlar nikbindirlər"[2].

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.301
[2] Yenə orada. s.302-303



İsmayıl Şıxlı Səadət xanımın eqoist hərəkətlərini açmaq üçün Cəmil maşınla adam basanda Səadət xanımın söylədiklərini xatırladır: "Nə olsun? Səksən yaşlı kişi idi. Bir ayağı burada idi, o biri gorda, onsuz da bugün – sabah öləcəkdi". Bundan sonra Səadət xanımın kim olduğunu dəqiq bilməyə şübhə yeri qalmır.

İsmayıl Şıxlı Cəmil obrazını dolğun təhlil etməklə "yalançı kübar mühitinin" yetişdirdiyi, "zənənə gözəlliyi" olan bir gəncin kimliyini xarakterizə edir. Elm Cəmil üçün şöhrət, gəlir mənbəyidir. O, nə edirsə öz mənfəəti naminə edir. Səadət xanımla birləşərək Nərminin yolunu kəsir.

İsmayıl Şıxlı əsərin elə məqamlarını təhlil edir ki, həmin məqamlar obrazların bütün qabarıq keyfiyyətlərini bir daha üzə çıxarır. Bu mənada əsərin sonunda obrazların üz – üzə dayanması daha tipikdir. İsmayıl Şıxlı yazır: "Əsərin sonunda surətlər yenidən görüşürlər. Maşın qəzasından sonra Cəmilin mənəvi miskinliyi, Səadət xanımın insan taleyinə "kübar münasibəti" daha qabarıq şəkildə meydana çıxır. Bu səhnədə professor sarsılır, bir qədər ayılır. Kərəm dayının humanizm və qayğıkeşliyi yeni əlamətlər-

lə zənginləşir. Kamran özünün xırda hisslərdən yüksəkdə dayandığını, mərdlik və mətanətini bir daha nümayiş etdirir. Nərmin yanıldığını, özünə xəyanət etdiyini başa düşür. Onu da dərk edir ki, geri qayıtmaq mümkün deyil. İndi özü sərbəst yol seçməlidir"[1].

İsmayıl Şıxlı Cəmilin iç üzünü, rəzilliyini açır. Onun bu xüsusiyyətlərini göstərmək üçün əsərin süjet xətlərinə diqqətlə yanaşır. Konkret olaraq Cəmilin hərəkətlərini açıq şəkildə tənqid edir. Öz əvəzinə Kərəm dayı kimi namuslu bir adamı həbsxanaya göndərmək istəyində olmaq rəzillikdən başqa bir şey deyil.

İsmayıl Şıxlı "Unuda bilmirəm" əsərinin səhnə taleyinin uğur qazanması səbəblərini də araşdırır. Onun gəldiyi qənaətlərdən biri budur ki, bu tamaşanın quruluşçu rejissoru Tofiq Kazımov surətlərin daxili aləmini aça bilən aktyorları seçib və gözəl ansambl yaradıbdır. "Rejissorun mizanları mənalıdır. O, səhnə imkanlarından maksimum dərəcədə istifadə edərək qəhrəmanlarının zəngin daxili aləmini açmağa müvəffəq olmuşdur.

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.305



Sevindirici halın biri də odur ki, səhnədə zahiri pafosa, təbiiliyə xələl gətirən hərəkətlərə rast gəlmirik. Aktyorlar surətlərin daxili aləmini açmaq üçün həm fərdi cizgilər tapır, həm də öz oyunları ilə bir – birini tamamlayırlar"[1].

İsmayıl Şıxlı "Unuda bilmirəm" tamaşasının bədii tərtibatının əsərin ruhuna uyğun olmasını, musiqisinin lakonik və emosionallığını nailiyyət kimi qiymətləndirir. İsmayıl Şıxlıya görə, yeni fikir, təmiz amal uğrunda mübarizə insanı həmişə düşündürməlidir. Bəli, professor Möhsünzadənin dediyi bu sözlər də adamı düşündürür: "İnsan hər şeydən əvvəl vətəndaş olmalıdır".

"İnsan hər şeydən əvvəl vətəndaş olmalıdır" fikri hər bir zaman insanı düşündürməlidir. Həyat olan yerdə problem var. Problem olan yerdə insan var. İnsan olan yerdə münasibətlər var. Münasibətlər olan yerdə saf, təmiz münasibətlərlə yanaşı, ziddiyyətli, barışmaz münasibətlər də var. Bu mənada insan və onun taleyi ilə bağlı məsələlərdən bəhs edən hər bir əsər bütün dövrlərin oxucularının

[1] Səməd Vurğun yenə sıramızdadır. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s. 306

maraq dairəsindədir. Bütün dövrlər üçün aktualdır. Odur ki, "Unuda bilmirəm" əsəri də, onun tamaşası da oxucuların və tamaşaçıların mənəviyyatının zənginləşməsində böyük əhəmiyyət kəsb edir.

Mənasız mübahisələr, yersiz müzakirələr, yüngül söhbətlər sözün həqiqi mənasında insanları yorur. Ədəbi mühitdə də belədir. Əsər var ki, ədəbi mühitə gümrahlıq gətirir, ədəbi mühit də, oxucu da, ədəbi tənqid də bu əsərlə tanış olduqdan sonra yüngülləşir. Oxucu özündə yeni əsər oxumaq gücünü toplayır, yazıçı yeni əsər yazmaq istəyində olur, ədəbi tənqid axtarmaq, araşdırmaq, təhlil etmək ovqatı üzərində köklənir. Bir sözlə, taleyini belə məqamlarda ədəbiyyata bağlayanlar özlərini xoşbəxt sayırlar.

İsmayıl Şıxlı yazır: "Bəzən yorulursan. Bir anlığa da olsa ədəbi söhbətlərdən uzaqlaşmaq istəyirsən. Çalışırsan ki, zehnin dincəlsin, ədəbi mübahisə və münaqişələri unudasan. Lakin İmranla görüşən kimi hər şey yaddan çıxır. Özün də hiss etmədən bu və ya digər əsər haqqında söhbətə başlayırsan. Dəqiqələr



ötür, mövzu dairəsi genişlənir"[1]. Söhbət İmran Qasımovdan gedir. İmran Qasımov taleyini ədəbiyyata bağlamış yazıçıdır. Onun müxtəlif illərdə yazdığı "Xəzər üzərində şəfəq", "İnsan məskən salır", Həsən Seyidbəyli ilə birlikdə yazdığı "Dəniz cəsurları sevir", "Nə üçün yaşayırsan?" əsərləri teatr tamaşaları kimi həmişə maraq dairəsində olmuşdur.

İsmayıl Şıxlı İmran Qasımovun ədəbi mühitdə oynadığı rolu çox sərrast xarakterizə edir. O, həyatını ədəbiyyata bağlamış bu yazıçı barədə yazır: "İmran həmişə axtarış aparan sənətkardır. Mən bu sözü təkcə onun bədii söz vasitələri, ya da mövzu axtarması ilə məhdudlaşdırmaq istəmirəm. Çünki bu sahədə onun kifayət qədər təcrübəsi var. İmranın axtarışları xalqımızın tarixi, onun mətanətli insanları ilə bağlıdır. Dünyanın ən ucqar guşəsindən bir azərbaycanlı balasından yaxşı soraq gəlirsə, İmran bir yazıçı və vətəndaş kimi dərhal onunla maraqlanır, onun haqqında axtarış aparır. Əgər belə olmasaydı onun H.Seyidbəyli ilə birlikdə yaz-

[1] Səmimi yazıçı, həssas insan. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.308

dığı “Uzaq sahillərdə” əsəri yaranmazdı”[1]. Deməli, İsmayıl Şıxlı İmran Qasımovu həmişə axtarışda olan, xalqımızın tarixi ilə maraqlanan, mətanətli insanların sorağında olan bir yazıçı kimi xarakterizə edir. Eyni zamanda o, İmran Qasımovu bu sahədə kifayət qədər təcrübəsi olan bir yazıçı kimi dəyərləndirir. Bununla belə, İsmayıl Şıxlı “Uzaq sahillərdə” əsərinin ədəbiyyatımızın, xalqımızın tarixində oynadığı rolu və əhəmiyyəti də xüsusi olaraq qeyd edir. İsmayıl Şıxlı yazır: “Burada iki başlıca cəhəti qeyd etmək lazımdır. Birincisi əsərin bədii keyfiyyətidir. İkincisi isə uzaq İtaliya torpaqlarında alman faşistləri ilə qəhrəmancasına vuruşub həlak olmuş şair qəlbli, rəssam təbiətli bir azərbaycanlı gəncin yenidən həyata qaytarılmasıdır. Mənə elə gəlir ki, yazıçının ucaltdığı heykəl bütün abidələrdən güclü və əbədidir. Tuncdan tökülmüş heykəl bəlkə də zaman keçdikcə dağıla bilər, lakin ədəbi heykəl ömürlükdür. Bu mənada “Uzaq sahillərdə” əsəri Mehdi Hüseynzadənin ədəbi heykəlidir”[2].

[1] Səmimi yazıçı, həssas insan. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s. 309-310
[2] Yenə orada. s.310



“Uzaq sahillərdə” əsəri Mehdi Hüseynzadəni milyonlara tanıdan bir əsərdir. Bu əsər olmasaydı, milyonlarla insanın Mehdi Hüseynzadənin qəhrəmanlığından xəbəri olmazdı. Məhz bu əsər Mehdi Hüseynzadənin şərəfini ucaltmaqla, ona əbədiyyət abidəsi yüksəltməklə xalqımızın şərəfini yüksəklərə qaldırmışdır.

İsmayıl Şıxlı İmran Qasımovun bir insan kimi, yazıçı kimi şəxsi keyfiyyətlərini, qayğıkeşliyini, dosta və yoldaşa münasibətini həssaslıqla qeyd edir. İmran Qasımovda olan elə insani keyfiyyətləri qeyd edir ki, bu keyfiyyətlər insanlara olduqca lazımdır. Nədir həmin insani keyfiyyətlər? Nədir həmin qayğı? Bütün bunlar barədə İsmayıl Şıxlı yazır: “İmran söhbətlərində atasının insanlara yaxşılıq etmək fikrini ona təlqin etməsini tez – tez xatırlayır. Mən ondan “insan gərək hər dəqiqə insanlara lazım olduğunu hiss etsin” sözlərini çox eşitmişəm. Bu, yalnız söz deyil. İmran istər ədəbi məsələlərdə, istər şəxsi münasibətlərində həmişə yoldaşlarına qayğıkeşlik göstərir. Mən onun gənc yazıçılarla söhbətlərində bu qayğını çox görmüşəm. Dostlarının ən kiçik arzularını həyata keçirməyə, çətinliyə düşdüklərini

gördükdə onlara yardım etməyə çalışır. Hiss edirsən ki, İmran insanlara lazım olduğuna görə fərəhlənir"[1].

İsmayıl Şıxlı İmran Qasımovun yazıçı kimi keçirdiyi bütün hisslərə, duyğulara, uğurlara rəğbətlə yanaşır. Hətta İsmayıl Şıxlı İmran Qasımovun uğurlarının bəzi məqamları barədə yazır: "Bizim mübahisələrimiz çox olur. Həmin mübahisələrin mövzularından biri yazıçının başqa dillərdə səslənməsi və öz xalqına bağlılığı məsələsidir. Növbəti görüşlərin birində İmranın Moskvada Akademik Malı Teatrda tamaşaya qoyulan "İnsan məskən salır" pyesindən söhbət düşdü. Mən ondan soruşdum ki, "sənin əsərlərin Moskva səhnəsində göstərilərkən nə kimi hisslər keçirirsən?" İmran bir az susdu və təmkinlə dilləndi: "Böyük, mərkəzi şəhərlərdə əsərin oynanılması çox yaxşıdır. Səhnədən Azərbaycan adları eşidirsən, tamaşaçılar Azərbaycan sözlərini təkrar edirlər. Teatr elanlarında azərbaycanlı adlarını görürsən, azərbaycanlı imzalarını oxuyursan. Lakin əsas məsələ hər sənətkarın öz xalqının qəlbində yer tutmasıdır"[2].

---

[1] Səmimi yazıçı, həssas insan. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.310-311

[2] Yenə orada. s.311



Dilin, ədəbiyyatın keşiyində dayanmağın bir bariz nümunəsi yüksək səviyyəli əsərlərin yazılmasıdır. Belə əsərləri yazmaq üçün təkcə istedadlı olmaq kifayət etmir, həm də yazıçı daim axtarışda olmalıdır. Yeni mövzular axtarışında olmaq, onu zamanın tələblərinə, tələbkar və zövqlü oxucuların tələblərinə uyğun yazmaq ədəbiyyatın inkişafına kömək edir. Məhz İsmayıl Şıxlı İmran Qasımovu həmişə axtarışda olan, mövzu axtarışında olan ədib kimi yüksək qiymətləndirir. O yazır: "İmran Qasımov yeni ədəbi axtarışlarla məşğuldur. Onun axtarışı bu dəfə Fransa torpağında olacaqdır. İmran Qasımov orada bir "ceyranın" izinə düşmüşdür. Bu "ceyran" müharibə illərində Fransada faşistlərə qarşı gizli mübarizə aparan Azərbaycan balalarının – partizanların toplaşdıqları bir çayxananın adıdır. Onun rəhbəri azərbaycanlı qız olmuşdur. "Ceyran" sözü həmin adamların fəaliyyəti ilə bağlıdır. Mövzu maraqlıdır. Hadisələr gərgindir. Bu iz bəlkə də yeni bir qəhrəmanın, ya da qəhrəmanların döyüşlərlə dolu olan həyat yollarına aparıb çıxaracaqdır. Bəlkə də indiyə qədər tanı-

madığımız Mehdi Hüseynzadələrlə tanış olacağıq?

Qoy axtarışlar davam etsin"[1].

İsmayıl Şıxlı ədəbi mühitə amal, məslək uğrunda mübarizə kimi yanaşır, cəsarət və prinsipiallıq göstərərək diqqətini çəkən, onu narahat edən, yaxud da ürəyindən xəbər verən hər bir məsələyə münasibət bildirir. O, ədəbi mühitdə baş verənlərə münasibət bildirməkdən kənarda qalmır. Bu barədə fikrini açıq söyləyir, mövqeyini açıq bildirir, məqsədini və istəyini açıq bəyan edir. Əlbəttə, ədəbi mühitə bu cür münasibət bildirmək üçün qətiyyətli, cəsarətli, mövqeli və olduqca prinsipial olmaq vacib şərtdir.

İsmayıl Şıxlı bir ədəbiyyat adamı kimi, eləcə də ədəbi mühitə münasibətdə həssas bir ədib kimi vicdanla danışan, vicdanla yazandır. Qətiyyən məsələlərə münasibətdə ciddiliyini itirmir, ötəri, keçici, boğazdanyuxarı münasibət bildirmir. Düzü düz, əyrini əyri deyir və ona görə də dediklərində və yazdıqlarında səmimiyyətdən kənarda heç nə görmək olmur. O, "Tofiq Bayrama açıq məktub"da yazır:

[1] Səmimi yazıçı, həssas insan. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.312



"Sözün düzü, mən sənin ilk şeirlərini oxuduqda ritorik cəhətin gələcəkdə üstünlük təşkil edə biləcəyindən qorxurdum. Çünki sənin bəzi şeirlərində zahiri təmtəraq, daxili məna və məzmun dərinliyindən güclü idi. Mən elə zənn edirdim ki, sənin ilk qələm təcrübələrin ötəri gənclik həvəsinin məhsuludur. Sən də bir çoxları kimi şairliyin zahiri cəhətlərinə aludəsən, xitabət kürsülərində şeir oxuyarkən dinləyicilərin alqışını qazanmaq yeganə məqsədindir. Məndən incimə. Özün bilirsən ki, beləldəri çoxdur. Ömrünü – gününü ədəbiyyatın ətrafında keçirib, saç – saqqal ağardan "cavan şairlər" mövcuddur. Onlar müxtəlif vasitələrlə qəzet və nəşriyyatlara soxulur, bu və ya başqa yolla beş – on şeir çap etdirir, hətta, dərsliklərə belə yol tapa bilirlər. Ancaq bir şeyi unudurlar ki, qəzetlərdə çıxış etmək, bir – iki kitabça buraxdırmaq, bəlkə də Yazıçılar İttifaqının üzvlük biletini almaq şair olmaq demək deyil"[1]. İsmayıl Şıxlının bu fikrində səmimiyyətdən kənarda heç nə yoxdur. O, şeirdə zahiri təmtəraq axtaranlar, dinləyici alqışından məst olanlar, müxtəlif va-

[1] Tofiq Bayrama açıq məktub. - İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.312

sitələrlə öz cızmaqaralarını çap etdirənlər, bir – iki kitabça buraxdıranlar barədə, nə deyirsə düz deyir. Onun bu dedikləri ədəbi mühitdə həmişə olub, indi də belədir. Deməli, İsmayıl Şıxlı "Tofiq Bayrama açıq məktub"da bütövlükdə ədəbi prosesə münasibət bildirir, ədəbi prosesi şəxsi və ucuz maraq dairəsinə çevirənlərin əleyhinə olur. Eyni zamanda onun bu mövqeyi ədəbi prosesin cəfakeşlərini bütün zamanlarda düşündürür.

İsmayıl Şıxlı Tofiq Bayramın bu şeirini nümunə kimi gətirir:

Bir qoşma deməklə dağdan, arandan,
Şairlik olmayır, ad – san olmayır.
Dəmir əridəndən, qaya yarandan,
Şairin zəhməti asan olmayır.

Hər ürək bu yola gətirməyib tab,
Şairlik nə bəylik, nə sultanlıqdır.
Şairlik ən böyük əziyyət, əzab,
Şairlik ən böyük qəhrəmanlıqdır.

Və İsmayıl Şıxlı bu şeir nümunəsindən sonra yazır: "Lakin bunu başa düşməyənlər, şairliyi ədabazlığa, modabazlığa çevirərək şöhrət qazanmağa çalışanlar var.



Elələri var ki, yanmadan yandırmaq, qanmadan qandırmaq istəyirlər. Sənin qəlbin (Tofiq Bayram nəzərdə tutulur – B.X.) haqlı olaraq belələrinə dözmür. Şairliyi adi peşə hesab edənlərə, vəzifə gücünə yazıçılıq xəyalına düşənlərə qarşı üsyan edirsən"[1]. İsmayıl Şıxlı görkəmli bir nəzəriyyəçi kimi çıxış edir, fikirlərini əsaslandırmağı bacarır. Bu da İsmayıl Şıxlının nəzəri hazırlığının yüksək səviyyəsindən xəbər verir. O, Bualonun "Poeziya sənəti" kitabından istinad gətirir: "Siz ey içi şöhrət hissi ilə alışıb-yanan, yüngül qələbə üçün poeziyanın çətin yollarına can atan kəslər, birdəfəlik bilin ki, o yüksək zirvəyə çatmaq sizin işiniz deyil. Hər şeir quraşdıran qafiyəpərdazdan şair çıxmaz!"[2]. İsmayıl Şıxlı bu fikrin sənətin əzəli və əbədi qanunları ilə bağlı olduğunu, bu gün də ədəbi hadisələrə qiymət vermək üçün çox dəyərli, müasir olduğunu nəzərə alaraq yazır: "Görünür, sənətə yüngül şöhrət mənbəyi kimi baxanlar, onu qazanc qaynağına çevirmək istəyənlər bütün əsrlərdə olmuşdur. Qafiyəli dəllallar

[1] Tofiq Bayrama açıq məktub. - İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s. 313
[2] Böyük sənətkarın tələbləri. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s. 327

hər yerdə və hər zaman əsl sənət adamlarının əl-ayağına dolaşmışlar, onları sıxışdırmağa çalışmış və bəzən də dövrün qabaqcıl adamı kimi özlərini qələmə verməyə belə müvəffəq olmuşlar. Belə olmasaydı, yüngül şöhrət düşkünü olan "şairlər ordusu" ədəbi mühiti, estetik zövqləri korlayıb, ürək bulandıran əsərlər yazmasaydılar və bu meyl xəstəlik halına düşməsəydi, hələ qədim Romada, Avqust imperiyası dövründə Horatsinin "Pizonlara məktublar" əsəri meydana çıxmazdı. Bualo XVII əsrdə şairlikdən, şeir qanunlarından bu qədər ehtirasla danışmazdı"[1].

İsmayıl Şıxlı "Tofiq Bayrama açıq məktub"da şairliyin fitri istedad olduğunu, şairliyin fədakarlıq olduğunu qeyd edir. Onu da qeyd edir ki, "Şair xalqın vicdanıdır. Vicdan isə daim ədalət və haqq yolunda çarpışmalıdır"[2].

Ədəbiyyatda həmişə istedadlı adamlarla yanaşı, istedadsız adamlar da olubdur. Eyni zamanda istedadsız və orta istedadlı adamların ədəbiyyata axını bütün zamanlarda müşahidə olunubdur. Odur

[1] Böyük sənətkarın tələbləri. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.329
[2] Tofiq Bayrama açıq məktub.- İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.313



ki, İsmayıl Şıxlı Bualonun fikrini qaynaq kimi dəyərləndirir: "Başqalarından daha çox özünüz öz əsərlərinizin əsl tənqidçisi olun və bilin ki, öz-özündən razılıq və özünü tərifləmək yalnız axmaqların işidir... Dostu dinləyin, yaltaqlara qulaq asmayın və bilin ki, üzdə sizə yaltaqlanan dalda sizə qara yaxır. Tərif yox, həmişə ağıllı məsləhət axtarın!"[1]. İsmayıl Şıxlı bu istiqamətdə söz demək, fikir yürütmək üçün Bualonun bu mövqeyindən bir fürsət kimi istifadə edir. O yazır: "Bualo haqlı olaraq deyir ki, "poeziyada babatlıq həmişə istedadsızlığın sinonimidir". İstedadsızlıq isə yaltaqlıq və saxtakarlıq törədir. Yaltaqlıq və saxtakarlıq isə sənətin düşmənidir. Çünki istedadsız adamlar öz naqisliklərini gizlətmək üçün ədəbi ictimaiyyəti çaşdırmaq, oxucuların zövqünü korlamaq kimi bir üsuldan istifadə edirlər. Onlar yeri gəldikdə özləri yaltaqlanır, yeri gələndə isə yaltaqları ətraflarına toplayırlar. Bu yolla ədəbi sima kimi məşhurlaşmağa çalışırlar"[2].

[1] Böyük sənətkarın tələbləri. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.331
[2] Yenə orada. s.331

İsmayıl Şıxlı Tofiq Bayramın mövzu dairəsinə də diqqət yetirir. Mövzu dairələri üzrə onun şeirlərindən nümunələr gətirir. Qənaəti belə olur: Tofiq Bayram gəncliyimizin amalı uğrunda mübarizə aparan, özünü düşünənlərə qarşı prinsipial olan, vətənə bağlı olan, qəlbən yanan, ehtiraslı və vətəndaş şairdir[1]. Hətta İsmayıl Şıxlı Didroya əsaslanaraq yazır: "Fransız yazıçısı Didro, ehtirassız vətəndaş ola bilməz demişdir. Şair isə hər şeydən əvvəl vətəndaşdır. Demək, ehtirassız şair də ola bilməz. Bu ehtiras isə vətənə, dostlara, xalqa məhəbbətdə özünü göstərməli, düşmənə qəzəb və nifrətdə təzahür etməlidir. Biz yeni həyat uğrunda apardığımız mübarizədə işimizə əngəl törədənlərə qarşı amansız olmalıyıq. Şair gərək ehtirasla yazsın və yazdığını da müdafiə eləsin. Əgər o dediyinə inanırsa, vicdanı ona arxa durursa geri çəkilməsin"[2].

İsmayıl Şıxlı Tofiq Bayramı əqidə, inam şairi kimi dəyərləndirir. Müqəddəs bir məqsədə və xalqına xidmət edən şair kimi xarakterizə edir. Heç kəsə və heç kimə biganə olmayan şair kimi onun duyğu və istəyinə, eləcə də yazdıqlarına rəğbət bəslədiyini söyləyir. Fikri aydın, poetik dili yüksək səviyyədə olan Tofiq Bayramdan nümunə gətirdiyi şeir misraları çoxlarına dərs verən misralar kimi onun yaradıcılığına böyük əminlik yaradır. Məsələn:

"Əqidəm yolunda qan tökmüşəm, qan,
Onu isitmişdir alovum, odum.
Mən öz əqidəmi topun ağzından,
Süngünün ucundan alıb qorudum".
*Yaxud:*
"Ürək dözmür nadan sənə,
Alim kimi dərs deyəndə".

İsmayıl Şıxlı oxucunun nə istədiyini təhlil etməyə və ona cavab tapmağa hazır olan bir ədib, ədəbiyyat adamıdır. O, günün tələblərini bilir, o, oxucunun psixologiyasını bilir, o, müntəzəm olaraq ədəbi prosesi izləyir. Bu mənada Xəlil Rza və Məmməd İbrahim barədə yazır: "Xəlil Rza və Məmməd İbrahim artıq öz pərəstişkarları və dinləyiciləri olan şairlərdir. Onların ədəbiyyatımızda öz nəfəsləri

---

[1] Tofiq Bayrama açıq məktub. - İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.314, 315, 316
[2] Yenə orada. s.316

duyulmaqdadır, onların şeirləri mübahisə və münaqişələr də törədir.

Xəlil Rza ilə Məmməd İbrahimi birləşdirən cəhət, onların şeirlərində vətəndaşlıq hissinin üstünlük təşkil etməsidir. Lakin onlar eyni adamlar deyildir. Hərəsinin öz təsvir üsulu, hadisələrə münasibəti və emosional dərəcəsi var"[1].

İsmayıl Şıxlı Xəlil Rza ilə Məmməd İbrahimi bir – birindən fərqləndirən cəhətləri üzə çıxarır, onların yaradıcılığının imkanları barədə cəsarətli və ümumiləşmiş fikirlər söyləyir. Məsələn, "Məmməd İbrahim konkret məsələlərə, mövzulara daha çox bağlıdır. O, ilk baxışda xırda görünənləri qələmə alır, getdikcə hadisələr böyüyür, genişlənir və şair bədii ümumiləşmələrə gəlib çıxır. Onun yaradıcılığında bir narahatlıq var. Şair daim axtarır, daim gəzir, daim Azərbaycan torpağını dolaşır və gördüyü hadisələrə biganə qala bilmir"[2].

İsmayıl Şıxlı Məmməd İbrahimlə müqayisədə Xəlil Rzaya və onun yaradıcılığına fərqli yanaşır. Belə ki, "Məmməd İbrahim daxili sakitlik və təmkinini saxlayan bir şairdirsə, Xəlil Rza odlu – alovlu, tribun və emosional bir sənətkardır. Hiss olunur ki, onun sevinci, qəzəbi, məhəbbət və nifrəti şeirin çərçivəsinə sığışmır, fikirləri darlıq çəkir. Şair öz fikir köhlənini nə qədər cilovlamağa çalışsa da bacarmır"[1].

[1] Şeirlər və alqışlar. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.319
[2] Yenə orada. s.319



[1] Şeirlər və alqışlar. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.320

# Dünya ədəbiyyatı tənqiddə

İsmayıl Şıxlı rus ədəbiyyatına da biganə qalmamış, Mixail Şoloxovun yaradıcılığına, onun əsərlərindəki obrazlara sənətkar məharəti ilə yanaşmışdır. İsmayıl Şıxlı hələ gənclik illərindən Mixail Şoloxovun əsərlərini oxumuşdur. Mixail Şoloxovun yaratdığı obrazların səciyyəvi cəhətləri və hadisələrin baş verdiyi yerlər İsmayıl Şıxlıya çox tanış gəlir. İsmayıl Şıxlı yazır: "Mən Don sahilində olmamışam. Stanitsalarda kazakların necə yaşadıqlarını da görməmişəm. Ancaq mənə elə gəlir ki, bütün uşaqlıq illərim məhz bu yerlərdə keçib"[1]. Yaxud: "... Şoloxovun təsvir etdiyi insanların səciyyəsindəki cəhətlər: inadkarlıq, mübarizlik, çılğınlıq, ehtiraslarındakı əzəmət, açıqqəlblilik, təmizlik, sədaqət bizim adamları xatırladırdı"[1].

[1] Dahiyanə sadəlik. - İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.353-354



Əlbəttə, söhbət Mixail Şoloxovun "Sakit Don" əsərindən gedir. İsmayıl Şıxlı bu əsəri oxuculara sevdirən cəhətləri açıqlayır, burada hökm etmədən, ədəbiyyata və ədəbi materiala inzibatçılıq mövqeyindən yanaşmadan, yazıçının məharətini təhlil edir, deyərdim ki, təqdim edir: "Mixail Şoloxovu mənə sevdirən cəhətlərdən biri onun təsvirlərindəki dahiyanə sadəlikdir. Bu böyük sənətkar istər təbiət lövhələrini cızarkən, istərsə də insan xarakterlərini, onların psixoloji aləmini şərh edərkən, artıq sözlərə, artıq mühakimələrə qətiyyən yer vermir. O çox sakit tərzdə, təhkiyə təmkinini pozmadan, ilk baxışda adi görünən, əslində isə təkraredilməz dərəcədə poetik ifadələrlə, mahiranə bir incəliklə zəngin lövhələr yaradır. Bunun nəticəsidir ki, Şoloxovu oxuyan hər bir oxucu onun təsvir etdiyi obyektlərlə bilavasitə təmasda olur. Donun sakit axarındakı şırıltını, balıqların şappıltı ilə sudan atılmasını, qamışların xışıltısını eşidir, günəbaxanlıqları, sahil çəmənliklərində dalğa-

[1] Dahiyanə sadəlik. - İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.354

lanan otları, kişnəşən atları öz gözləri ilə görür"[1].

İsmayıl Şıxlı Mixail Şoloxovun yaradıcılıq sirrlərinin bəzi xüsusiyyətlərini açır və həmin xüsusiyyətlərdən bəhs etməklə onun yazıçı özəlliklərini göstərir. Məsələn, o, Mixail Şoloxovun yaratdığı qəhrəmanın tərcümeyi – halını bir xalqın tarixinə çevirməsini yüksək qiymətləndirir. İsmayıl Şıxlı yazır: "Mixail Şoloxovun yaradıcılıq sirrlərindən biri də öz qəhrəmanlarının tərcümeyi – halını bütöv bir xalqın, bəlkə də epoxanın tarixinə çevirə bilməsidir. Onun ən böyük epopeyası olan "Sakit Don" əsəri məhz bu cür yazılmışdır"[2].

İsmayıl Şıxlı "Sakit Don" əsərində hadisələr və onların cərəyan etmə fonunda oxucunun keçirdiyi hissləri, az qala hadisələrin iştirakçısına çevrildiyini sənətkarın yaradıcılıq məharəti ilə əlaqələndirir. Məsələn, "Hadisələr Don sahilindəki xutorların birində cərəyan edir. Yazıçı bizi Panteley Melexovla, Qriqori və Petro ilə, Aksinya, Natalya, Stepanla tanış edir. Onlarla birlikdə çəmənlikləri dolaşırıq, çiçəkləri qoxulayırıq, ot çalırıq, xırman

[1] Dahiyanə sadəlik. - İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.354
[2] Yenə orada. s.354



döyürük, bəzən höçətləşir, yabalaşırıq. Axşam isə qarmon çala – çala doqqazlarda toplaşırıq. Qriqorinin suvadaqda Aksinyaya söz atdığını görürük, sonra onlarla birlikdə küləkli, yağışlı havada balıq tutmağa gedirik, iliyimizə qədər islanırıq, soyuqdan daldalanmaq üçün ot xotmasının altına girən Aksinyanın bədəninin hərarəti ilə Qrişanı isitdiyini və özünün də isindiyini gördükdə onların təmasdan məst olan bədən süstlüyünü öz damarlarımızda hiss edirik"[1].

İsmayıl Şıxlı qeyd edir ki, ailə, məişət məsələləri zəminində hadisələr zamanla çarpazlaşır. Bir insan bütöv bir xalqın taleyinə çevrilir, hadisələr bütöv bir xalqın taleyindən keçir və bunların fonunda tarixin inikası görünür. Həmin tarix birinci dünya müharibəsinin ziddiyyətlərini əks etdirən tarixdir. Həmin tarix Oktyabr inqilabı və vətəndaş müharibəsi dövründəki çarpışmaları əks etdirən tarixdir. Həmin tarix bütöv bir əsrin, epoxanın tarixidir.

İsmayıl Şıxlı yazır: "Bir insan (Qriqori Melexov – B.X.) bütöv bir xalqın timsalına

[1] Dahiyanə sadəlik. - İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.355

çevrilir. Onun həyatı əsrin tarixinin inikası olur. Bax, adamı heyran qoyan da sənətkarın bu məharətidir"[1].

Ümumiyyətlə, yazıçı hansı xalqın, millətin ədəbiyyatına xidmət göstərməsindən asılı olmayaraq yazdıqlarının təbiətinə, ruhuna varmağı bacarmalıdır. Bu mənada İsmayıl Şıxlı bəhs etdiyi, haqqında yazdığı rus yazıçılarının sənətkarlığını dərindən təhlil edir, sənətkarlığın əsas xüsusiyyətlərini müəyyənləşdirir, yazıçının və əsərin təbiətinə, ruhuna varır. Məsələn, o, Vladimir Alekseyeviç Solouxin barədə yazır: "Vladimir Alekseyeviç Solouxin rus təbiətinə, rus kəndinin təbii gözəlliklərinə məftun olan, onun hər bucağını, meşələrini, çəmənliklərini, göl və çaylarını, ot və çiçəklərini, göbələklərini poetik bir vüsətlə təsvir edən lirik bir sənətkardır"[2].

İsmayıl Şıxlı həm Mixail Şoloxov, həm də Vladimir Alekseyeviç Solouxinin yaradıcılığı barədə fikir söyləyərkən onun hər ikisinin rus torpağına məftunluğunu, sevgi və məhəbbətini, eyni zamanda

[1] Dahiyanə sadəlik. - İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.355
[2] Vladimir Alekyeviç Solouxin. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s. 361



təbiət aşiqi olduqlarını nəzərə alır. Ona görə də Mixail Şoloxovun yaradıcılığında olduğu kimi Vladimir Alekseyeviç Solouxinin yaradıcılığında da bu xüsusiyyətləri nəzərə alaraq yazır: "O (Vladimir Solouxin – B.X.) istər şeir və poemalarında, istərsə də nəsr əsərlərində lirik qəhrəmanla birlikdə cığırlarla, kəndarası torpaq yolları ilə, enişli – yoxuşlu dərələrlə, ağcaqayın meşələrinin içindən keçən, bəzən də onun kölgəsində mürgüləyən çaylar və göllərin sahili ilə pay – piyada dolaşır, balıq tutur, gecələr ocaq qırağında oturub ovçularla birlikdə balıq şorbası bişirir, söhbətlərə, nağıllara qulaq asır, dan qızaranda isə çantasını da götürüb yola düşür, üstünə şeh çilənmiş otların, çiçəklərin ətrini qoxulayır, meşənin dərinliklərinə gedib göbələk yığır"[1].

Vladimir Solouxinin təbiət aşiqi olduğunu "Səhra yağışları", "Ölü daş əfsanəsi", "Ana şöhrəti" kimi lirik şeir və poemaları, "Vladimir yolları", "Şeh damlaları" kimi nəsr əsərləri təsdiq edir və bundan İsmayıl Şıxlı da söhbət açır[2].

[1] Vladimir Alekyeviç Solouxin. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.362
[2] Yenə orada. s.362

Yazıçı bəzən özünü yazır, bəzən isə öz ürəyindən keçənləri obrazların dili ilə ifadə edir, yenə də yazır. Hər halda hər ikisində də düşüncəsi, mühakiməsi, yazdıqlarının fəlsəfəsi çox şeydən xəbər verir. Məhz bu cəhət Vladimir Solouxinin yaradıcılığında özünəməxsus xarakter daşıyır. İsmayıl Şıxlı bu baxımdan da onun yaradıcılığını səciyyələndirir və yazır: "Vladimir Solouxinin yaradıcılıq xüsusiyyətlərindən biri də onun əsərlərinin avtobioqrafik xarakter daşımasıdır. Yazıçının povest, hekayə və yol qeydlərini oxuduqda başa düşürsən ki, hekayəçi Solouxinin özüdür. Sənə təbiəti göstərən, hadisələri nəql edən, bu və ya digər məsələ haqqında fəlsəfi mühakimələr yürüdən, Qırğızıstandan, başı dumanlı Tyan-Şan və Adıgey dağlarından, Gürcüstandan, Azərbaycanın Ceyrançölündən, Sevandan, rus meşələrindən, rus kəndinin keçmişi və indisindən, qədim kilsələrdən söhbət açan yazıçının özüdür"[1].

İsmayıl Şıxlı Vladimir Solouxinin təkcə öz xalqının deyil, başqa xalqların və millətlərin mədəniyyətini, ədəbiyyatını

[1] Vladimir Alekyeviç Solouxin. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.362



sevdiyini də onun ən gözəl xüsusiyyətlərindən biri sayır. "V.Solouxinin bir insan və yazıçı kimi ən gözəl xüsusiyyətlərindən biri də odur ki, o öz torpağını, xalqını, adət - ənənələrini sevdiyi qədər də başqa xalqları, onların milli xüsusiyyətlərini sevir. Bir dəfə Kür sahilində milli mədəniyyət və ədəbiyyatdan onunla söhbət edərkən, azacıq fikrə getdi və mənə belə cavab verdi:

– Əgər mən bir rus kimi öz balalaykamı sevirəmsə və başqalarından da bunu gözləyirəmsə, onda gərək özüm də başqalarının milli musiqi adətlərini dinləməyi və onların buna necə məhəbbət bəslədiklərini dərk etməyi bacaram. Belə olmasa qarşılıqlı anlayış yaranmaz"[1].

Bununla da İsmayıl Şıxlı yaxşı bir nümunəni yazıçının fikri və mövqeyi əsasında başqalarına da çatdırır. Başqalarının da bu cür olmasını istəyir və istək əsasında da milli adət - ənənələrə, milli ədəbiyyata, milli mədəniyyətə hörmətlə yanaşanları alqışlayır.

İsmayıl Şıxlı dünya ədəbiyyatının görkəmli nümayəndəsi C.Q.Bayronun yara-

[1] Vladimir Alekyeviç Solouxin. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.362-363

dıcılığına geniş təhlil verir və onu "Azadlığın üsyankar carçısı" adlandırır[1]. O, Bayron və Şellini eyni ədəbi məktəbin nümayəndəsi, hər ikisinin XIX əsr ingilis mütərəqqi romantizmi ilə bağlı sənətkar olduqlarını qeyd edir. "Bayron və Şelli daha irəli gedərək, inqilabi romantizmin bayrağını göylərə qaldırmışlar"[2].

İsmayıl Şıxlı Bayronun tərcümeyi-halı barədə çox aydın və dürüst məlumat verir. Hiss olunur ki, onun xarici ölkələr ədəbiyyatını tədris etməsi tərcümeyi-hal materialının aydın şəkildə çatdırılmasında yardımçı rolunu oynayır. Bayron 1788-ci ilin yanvar ayının 22-də Londonda dünyaya gəlmişdir. Atası İngiltərənin qədim lordlar nəslindən, anası isə şotlandiyalı kübar qadın olmuşdur. Onun atası və anası bir-birinə bənzəməyən xasiyyət, xarakter sahibləri kimi fərqlənmişlər. Bayronun atası yüngülxasiyyət, anası isə həssas, hər bir hadisədən təsirlənən, eyni zamanda çılğın qadın olmuşdur. Atası Bayronun anasının bütün cehizlərini satır və xərcləyir, sonra borclu olduğu adamların əlindən qurtarmaq üçün qaçıb

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.236
[2] Yenə orada. s.236



Fransaya gedir. O, Fransada ölür. Belə olduqdan sonra Bayronun anası onu da götürüb Şotlandiyaya qayıdır. Onun uşaqlığı anasının vətəni Şotlandiyada, kiçik Eberdin şəhərində keçir. Şotlandiya kiçik Bayronun xəyalında dərin iz buraxır.

Bayron hələ kiçik yaşlarından lordluq rütbəsi alır. Onun on yaşı tamam olarkən ata babası ölür, ata babasının varisi olmadığından bütün var-dövlət balaca Bayrona qalır. Balaca Bayron anası ilə birlikdə Nottingem qraflığına, ata-baba yurdu olan Nyusted qəsrinə köçür.

Balaca Corc Bayron olduqca yaraşıqlı, qıvrım saçlı uşaq olmaqla yanaşı, bir şikəstliyi də vardı. Belə ki, onun ayağının biri gödək idi. Bu şikəstlik onu həmişə məyus edir, kədərləndirir və düşündürürdü.

Kiçik Bayronu anası 1801-ci ildə Londonun yaxınlığındakı Qarrou kollecinə oxumağa qoyur. O, 1805-ci ilə qədər burada oxuyur. Bayron kolleci bitirdikdən sonra Kembric darülfününuna daxil olur, 1808-ci ilə qədər orada oxuyur. Tarix, ədəbiyyat, fəlsəfə ilə maraqlanır, dilləri öyrənir, ingilis xalq yaradıcılığını və klassik ədəbiyyatını mükəmməl öyrənir. O,

tələbə yoldaşlarına qoşulmur, bütün gününü mütaliə ilə keçirirdi. Getdikcə püxtələşir və təcrübə toplayırdı. Hələ kollecdə oxuduğu dövrdə şeirlər yazmağa başlayır və nəhayət, 1807-ci ildə "Asudə saatlar" adlı ilk şeir kitabı çap olunur. Bu kitab oxucuların və tənqidçilərin diqqətini cəlb edir.

İsmayıl Şıxlı yazır: "Beləliklə, şairin ilk ədəbi çıxışları London kübarları ilə toqquşmaya səbəb oldu. Onlar hiss edirdilər ki, ədəbiyyata yeni və həm də üsyankar bir şair gəlir.

Bayron 1808-ci ilin iyul ayında darülfünunu bitirdikdən sonra Nyusted qəsrinə çəkilir, heç kəslə görüşmək istəmir. Ətrafdakı mülkədarlar onunla dostlaşmağa çalışsalar da, Bayron onlardan uzaqlaşır, bəzi köhnə məktəb yoldaşlarından başqa heç kəsi evinə buraxmır"[1].

İsmayıl Şıxlı Bayronun səyahətə çıxması, bu səyahətin onun yaradıcılığında, həm də ictimai-siyasi görüşlərində təbəddülatlar yaratması barədə yazır: "Nəhayət, Bayron 1809-cu il iyun ayının 26-da Portuqaliya sahilləri ilə səyahətə çıxdı.

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.240



Onun məqsədi Aralıq dənizi hövzəsindəki ölkələri gəzmək idi. O, Portuqaliyadan sonra Pireneyi aşıb İspaniyaya gəldi. Seviliyada, Kadiksdə və başqa şəhərlərdə oldu. Sonra Maltaya gəldi. Oradan da Yunanıstana keçdi. Daha sonra Albaniyanı gəzdi Konstantinopola qədər getdi. Yenidən geri qayıdıb Afinada dayandı. Bayron Şərq ölkələri ilə həm də romantik bir şair kimi maraqlanırdı. Bu səyahət şairin həm ictimai-siyasi görüşlərində, həm də bədii yaradıcılığında böyük bir təbəddülatın baş verməsinə səbəb oldu. Ona görə ki, Bayron bu səyahəti zamanı yalnız yeni ölkələr görüb, onun təbii gözəlliklərinə məftun olan müşahidəçi kimi qalmadı. Bayron bu ölkələri gəzərkən o zaman bütün Avropanın diqqət mərkəzində dayanan ictimai hadisələrin burulğanına düşdü"[1]. İsmayıl Şıxlıya görə, Bayronun qəlbindəki üsyankarlıq ona görə gurladı və çağladı ki, "Şair Albaniyanın təbii gözəlliklərini gördü, zümrüd sahillərini, qalın meşələrini, sinəsi yaşıl dağlarını seyr etdi, limonlu dərələrin rayihəsini duydu. Ancaq bu qəhrəman

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980,. s.241

xalqın, təmiz və qonaqpərvər insanların əsarət altında inlədiyini də gördü. Qədim cəngavərlər yurdu, musiqi, nəğmə və rəqslər ölkəsi olan İspaniyanın halı da acınacaqlı idi... İspaniyada milli istiqlaliyyət müharibəsi gedirdi"[1].

Bayron səyahətdə çox kamilləşir, həyatı öyrənir, düşüncələrini dərinləşdirir. Səyahətdən 1811-ci ildə iyul ayının 17-də İngiltərəyə qayıdır. Onun anası həmin ərəfədə vəfat edir, Bayron anasının sağlığına özünü yetirə bilmir. Bu itki onu çox məyus edir.

Bayronun səyahət zamanı yazdığı mənzum qeydlər dostu Dallası və naşir Merredi valeh edir. Ona görə də bu qeydlərin çap olunmasını qərara alırlar. İsmayıl Şıxlı yazır: "...məşhur "Çayld Haroldun səyahəti" əsərinin iki nəğməsi meydana gəldi. Bayron sonralar bu əsərin daha iki nəğməsini də yazdı.

"Çayld Harold" əsərinin birinci və ikinci nəğməsi 1812-ci ildə dərc edildi və böyük gurultuya səbəb oldu. Əsər bir ildə beş dəfə nəşr olundu ki, bu da o zaman üçün görünməmiş bir hadisə idi. Əsərin

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.241



bu qədər sürətlə və geniş yayılmasının səbəbi hər şeydən əvvəl şairin öz poemasında zəmanəsindəki ictimai bəlalara, xəstə məsələlərə toxunması idi"[1].

İsmayıl Şıxlı əsərin qəhrəmanı Çayld Haroldun simasında şəxsiyyətlə cəmiyyətin qarşılıqlı münasibəti məsələsini açmağa çalışır. Cəmiyyətdən bezmiş gənc Çayld Haroldun narahatlığını, mənən düşkünləşdiyini əks etdirir, onun tezliklə vətənlə vidalaşdığını və Şərq ölkələrinə getməyə çalışdığını nəzərə çatdırır. O, mənəvi dinclik axtarmaq üçün Şərq ölkələrinin qoynuna çəkilməyə çalışır.

İsmayıl Şıxlı birinci nəğmədə Haroldun Portuqaliyanı, İspaniyanı gəzdiyini, lakin burada əmin-amanlığın olmadığını, Fransa və İngiltərə qoşunlarının bu torpaqları zəbt etdiyini Bayronun təsvirləri əsasında təhlil edir. İkinci nəğmədə Türkiyənin əsarəti altında olan Yunanıstanın ağır vəziyyətini Haroldun mühakimələri ilə verir. İsmayıl Şıxlı qəhrəmanın (Haroldun) passiv müşahidəçi olduğuna tənqidi münasibət bəsləyir. Şairin (Bayronun) üçüncü və dördüncü nəğmələrdə

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.243

qəhrəmanın halına tənqidi münasibət bəsləməsinə haqq qazandırır. İsmayıl Şıxlı yazır: "Poemanın Venetsiyada yazılan dördüncü nəğməsi isə İtaliyadakı hadisələrlə bağlıdır. Bayron duyurdu ki, tezliklə azadlıq küləyi əsəcəkdir.

Beləliklə, epik-lirik poema olan "Çayld Harold" əsərində Bayronun zəmanəsi üçün səciyyəvi olan böyük məsələlərə toxunduğunu görürük. "Çayld Harold"un qələbəsindən sonra Bayron "Şərq poemaları" adlı məşhur əsərini yazdı. 1813-1816-cı illər arasında yazılan həmin əsərlər bunlardır: "Gavur", "Abidos gəlini", "Korsar", "Lara", "Korinfin mühasirəsi", "Parizina"[1].

İsmayıl Şıxlı "Şərq poemaları"nın qəhrəmanlarını birləşdirən oxşar cəhətlər barədə yazır: "Onlar hər şeydən əvvəl, cəmiyyətin bütün qanunlarını inkar edən, cəmiyyətdən qovulmuş adamlardır. Onlar üsyankardırlar. Fövqəladə taleyə, fövqəladə ehtirasa, sarsılmaz iradəyə, nakam məhəbbətə malik olan adamlardır. Məsum tale onları həmişə təqib edir, onlar azdlıq axtarırlar. Lakin bu azadlığı du-

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.245



manlı şəkildə təsəvvür edirlər. Bu qəhrəmanlar həyatda öz yerlərini tapa bilmirlər. Onlar böyük işlər üçün yaranmış adamlardır, ancaq cəmiyyət onları alçaltmış və təhqir etmişdir. Onlara fəaliyyət göstərmək üçün imkan verməmişdir"[1]. "Şərq poemaları" Bayronun şöhrətini bütün dünyaya yayır, o, London kübarlarının sevimlisinə çevrilir.

İsmayıl Şıxlı kübar mühitinin Bayrondan intiqam almasını incəliklərinə qədər izah edir. 1815-ci ilin yanvar ayında Bayronun Annabella adlı bir qızla evləndikdən onun tamamilə yanıldığını anladır. Annabellanın Bayronu təhlükəli bir adam kimi qələmə verdiyini, yenicə anadan olmuş qızı Adanı da götürüb atası evinə getdiyini təhlil edir. Bayronun 1816-cı ildə Cenevrəyə gəlməsi Şelli ilə tanışlığı, bu tanışlığın möhkəm ədəbi və məslək dostluğuna çevrilməsi İsmayıl Şıxlı tərəfindən analiz olunur. Xüsusilə, fəlsəfi-dramatik "Manfred" poeması, "Qabil" dramı, "Don Juan" mənzum romanı təhlil olunur. Təhlillər elə məqamları anlatmağa çalışır ki, həmin məqamlar hər bir kəsi düşündürür,

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.245

hər bir kəsə təsir edir. Məsələn, "dünya kədəri"ni doğru şəkildə əks etdirən "Qabil" (1821) əsəri barədə İsmayıl Şıxlı yazır: "Bayron Qabilin simasında insanlar arasında ilk dəfə göylərə üsyan edən bir adamı təsvir etmişdir. Adəm, Həvva, Ada, Sella, Habil və Qabildən ibarət olan ilk bəşər övladlarının ailəsində iki dünyabaxışı hökm sürür. Onun biri mütilik, Allaha kor-koranə sitayiş edib qurban kəsmək və dua oxumaqdır. İkincisi isə şübhə və etirazdır. Qabildən başqa hamı mütidir, Allaha tabedir, ona dua oxuyur. Qabil isə Allahdan narazıdır. O, belə suallar verir: "Mən Allaha nə üçün dua etməliyəm? O mənə hansı yaxşılıqlar etmişdir? O bizi cənnətdən nə üçün qovdu? Nə üçün Allah insanları əbədi həyatdan məhrum etmişdir? Nə üçün insanlar ölümə məhkumdurlar? Ölüm nədir? Nə üçün bəşər nəsli yalnız bir adamın günahına görə məşəqqətlərə düçar olub yerlərdə sürünməli və axırda da ölməlidir? Bu qanunları kim ortaya atmışdır. Allahın yaratdığı bu kainatda ədalət varmı?" Qabili düşündürən və sarsıdan bunlardır. O təkcə özünü yox, gələcəkdə yer üzündə yaşayacaq milyonlarla insan övladının



taleyini düşünür. Demək, Qabilin kədəri adi, şəxsi kədər deyil. Onun kədəri daha böyükdür. Bəşəri kədərdir, dünya kədəridir"[1]. İsmayıl Şıxlı davam edərək Qabil barədə yazır: "İş elə olur ki, ölümdən qorxan Qabil yer üzünə ilk ölümü gətirir. O, qardaşı Habili öldürür və buna görə də kainatın sonsuzluğuna sürgün edilir. Ada isə onu tək buraxmır. Ada Qabilin həm sevgilisi, həm də sirdaşıdır"[2].

İsmayıl Şıxlı Bayronun ömrünün sonunda Yunanıstana gəlməsi, orada vəfat etməsi (1824-cü il aprel ayının 19-da) barədə də şərhlər verir. Məsələn, Bayron ölüm ayağında demişdir: "Mən hər şeyimi – gözəl günlərimi, var-dövlətimi, səhhətimi belə Yunanıstana həsr etdim. Bundan artıq nə etmək olardı? İndi isə öz həyatımı da qurban verirəm"[3].

Yunan vətənpərvərlərinin tələbi ilə Bayronun ürəyini Yunanıstanda, cənazəsini isə İngiltərədə, Nyustedin yaxınlığındakı Hakk noll deyilən yerdə dəfn etdilər[4].

---

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.251-252
[2] Yenə orada. s.252
[3] Yenə orada. s.255
[4] Yenə orada. s.256

İsmayıl Şıxlı xarici ölkələr ədəbiyyatının tədqiqatçısı və bu sahənin görkəmli pedaqoqu kimi Bayronun dünya ədəbiyyatında oynadığı rol və xidmətlər barədə ürəkdolusu təhlillər aparır və orijinal fikirlər söyləyirdi: "Bəşərin dərdini çəkən, dünya kədərini özünə yük edib, demokratiya və azadlıq uğrunda yorulmadan vuruşan, "üsyankar bir qayıq kimi fırtınalar qoynunda asudəlik axtaran", "düşüncələr sultanı" Bayronun xatirəsini mütərəqqi bəşəriyyət heç zaman unutmamış və unuda bilməz. Ona görə ki, bütün ziddiyyətlərinə baxmayaraq, Bayron öz qəlbini xalqların yolunu işıqlandırmaq üçün bir məşəl kimi yandırmışdır!"[1]

[1] Azadlığın üsyankar carçısı. – İsmayıl Şıxlı. Xatirəyə dönmüş illər. Xatirələr və məqalələr. B., Yazıçı, 1980, s.256



# Yazıçı və zaman problemi

İsmayıl Şıxlı Azərbaycan nəsrinin sovet dövründə tutduğu mövqeyə, oynadığı rola, toxunduğu problemlərə münasibət bildirir, ən səciyyəvi məqamları oxucuların və ədəbi ictimaiyyətin diqqətinə çatdırırdı. O, "nəsr və zaman" məsələsinə konkret dəlillər əsasında aydınlıq gətirir, maraqlı mühakimələr irəli sürür. Ən yaxşı ədəbi nümunələrimizi, sovet dövrü Azərbaycan ədəbiyyatının təşəkkülündə, inkişafında xidmətləri olan yazıçıların adlarını xüsusi olaraq qeyd edir, onların ədəbiyyatımızın İttifaq miqyasında tanınmasında mühüm işlər gördüklərindən ürəkdolusu danışırdı. İsmayıl Şıxlı müsahibələrinin birində deyirdi: "Ən yaxşı ədəbi nümunələrimiz bir çox dillərə tərcümə olunmuş və rəğbət qazanmışdır.

Burada yaşlı nəslin, sovet dövrü ədəbiyyatımızın təşəkkülü və inkişafında böyük xidmətləri olan ağsaqqal yazıçılarımızın adlarını xüsusi qeyd etmək lazımdır. M.S.Ordubadi, Mehdi Hüseyn, Mirzə İbrahimov, Süleyman Rəhimov, Əbülhəsən, Mir Cəlal, Əli Vəliyev və başqaları nəsrimizin bir sıra problemlərinin həllində, xalq həyatının mürəkkəb, ziddiyyətli və mühüm bir dövrünün bədii salnaməsinin yaradılmasında, ədəbiyyatımızın İttifaq miqyasına çıxarılmasında ciddi iş görmüşlər.

Mən hələ yaradıcılıqları, əsasən, inqilabdan əvvəlki illərə təsadüf edən qocaman ədiblərimizin – C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, Y.V.Çəmənzəminlinin sovet dövründə yazdıqları əsərləri demirəm"[1]. İsmayıl Şıxlını 70-ci illərin nəsri (XX əsrin) maraqlandırır, bu dövrün ədəbiyatının özünəməxsusluğu, qəhrəmanlarının ümumi əhval-ruhiyyəsi maraqlandırır. Müsahibələrinin birində deyir: "Ədəbiyyatımız yenə də inkişaf edir, yeni bədii əsərlər yaranır, ancaq onların Ümumittifaq miqyasına çıxarılmasında az iş görürük. Əvvəllər yaxşı ənənə var idi,

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s. 312



layiqli əsərləri mətbuat səhifələrində müzakirə edir, başqa dillərə tərcüməsinə çalışırdıq. Nədənsə, indi tərcümə işi bir növ özbaşına şəkil alıb. Bir də görürsən, İttifaq oxucularına ədəbiyyatımızın səciyyəvi olmayan nümunələri çatdırılır. Buna görə də özümüzü yaxşı tanıda bilmirik"[1].

Ədəbiyyat tariximizə əbədi həkk olunmuş əsərlər sırasında 70-ci illərin nəsri layiqli yerlərdən birini tutur. "Dəli Kür", "Pərvanə", "Dünya Qopur", "Səhər", "Şamo", "Saçlı" və s. əsərlər monumentallığı, bədii möhtəşəmliyi, sanbalı ilə seçilir. Ancaq bu nəsr nümunələrini bəşəriyyətin, dünya nəsrinin incilərinə çevirmək üçün xeyli işlər görmək lazımdır. Hər şeydən əvvəl, özümüz belə nəsr nümunələrini öyrənməliyik, eləcə də dünya ədəbiyyatının yaxşı nümunələrini öyrəndikdən sonra onunla müqayisə etməliyik. Bütün bunlardan sonra nəsrimizin özəlliklərini təqdim etməliyik.

İsmayıl Şıxlı tarixi roman janrına müraciətin bəzi məqamlarına aydınlıq gətirir, bu meylin səbəblərini açıqlayır. O, yazıçının tarixə müraciət etməsinin səbəblərini izah edərkən onun (yazıçının)

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s. 313

öz dövrünün idealları mövqeyindən çıxış etməsini və bu zaman tarixin bir vasitə rolunu oynadığını qeyd edir. Məhz tarixdən yazmağın asan olmadığını, bunun üçün yazıçının zəhmətkeşliyinin və istedadının önəm daşıdığını nəzərə çatdırır. Bu mənada İsmayıl Şıxlının fikirlərinə istinad edək: "Əvvəla aydınlaşdırmaq lazımdır ki, yazıçı tarixə nəyə görə müraciət edir? Mənim fikrimcə, bunun iki səbəbi var: birinci, yazıçı müasir həyatda mövzu tapa bilmir, ikincisi, bu günü daha yaxşı görmək, dərk etmək üçün tarixə əl atır; tarixdə bu günün kökünü axtarır, hansı özül üzərində dayandığımızı göstərməyə çalışır"[1]. Daha sonra qeyd edir: "... Əsl yazıçı hansı dövrə müraciət edir-etsin, yaşadığı cəmiyyətin, zəmanəsinin bədii-estetik və ictimai idealları mövqeyindən çıxış edir; tarix məqsəd olmur, vasitə olur. Düzdür, bu gündən yazmaq çətindir: həyat mürəkkəbdir, bir çox proseslər yanaşı inkişaf edir, hələ başa çatmayıb; belə axınlar içərisində başlıca olanı, səciyyəvi olanı seçə bilmək, dövrün, cəmiyyətin xarakterini duyub ümumiləşdirmək ağır işdir və böyük istedad

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s. 317



tələb edir. Ancaq bu o demək deyildir ki, tarixdən yazmaq asandır, tarixdən yazmağa az zəhmət, az istedad gərəkdir..."[1]

İsmayıl Şıxlı tarixi mövzulara müraciət baxımından Fərman Kərimzadənin "Qarlı aşırım" romanını yüksək qiymətləndirirdi. Onun fikrincə, tənqidçilər belə bir romanı hələ də qiymətləndirə bilmir. İsmayıl Şıxlı bu romanı Fərman Kərimzadə yaradıcılığında xüsusi hadisə hesab edirdi. "Fərman Kərimzadənin qələmə aldığı mövzu sovet ədəbiyyatı üçün yeni deyildir; kollektivləşmə dövrünün kəndindən çox yazmışlar. Amma Fərman köhnə mövzuya təzə baxış guşəsindən, 60-70-ci illərin yazıçısı gözü ilə, bu illərin ədəbi-bədii tələbləri mövqeyindən yanaşmış, özünəməxsus orijinal yol seçmiş, təzə və təravətli obrazlar yarada bilmişdir. Onun hətta mənfi surətləri də mürəkkəb, hərtərəfli və ziddiyyətli insanlardır"[2].

İsmayıl Şıxlının fikrincə, yazıçının tərcümeyi-halı, topladığı həyat materialı yaradıcılıqda mühüm rol oynayır. Bu mənada İsmayıl Şıxlı "Qarlı aşırım" barədə deyəndə ki, bu əsərin "... əsas

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s. 317
[2] Yenə orada. s. 318

məziyyəti bundan ibarətdir ki, inqilabi proses milli həyatımızın özünəməxsus cəhətləri ilə əlaqədar şəkildə, zəruri, qarşısıalınmaz bir hadisə kimi verilib və Abbasqulubəy Şadlinski obrazında bir növ rəmzləşdirilib"[1], onda o, yazıçının tərcümeyi halının, topladığı həyat materialının yaradıcılıqda həlledici rol oynadığını nəzərə alırdı. Eyni zamanda Fərman Kərimzadənin öz həyatının romanındakı qəhrəmanlarla və hadisələrin cərəyan etdiyi yerlərlə qırılmaz bağlılığını unutmurdu. Burada İsmayıl Şıxlı öz yazıçı təcrübəsindən çıxış edərək fikir söyləyir, həm də öz təcrübəsindən danışırdı. Belə ki, o, "Dəli Kür"də istifadə etdiyi həyat materialları barədə deyirdi: "Kür sahilindəki Şıxlı kəndində baş verən hadisələr haqqında eşitdiklərim və gördüklərim uşaqlıqdan məni həyəcanlandırırdı. Hələ tələbəlik illərində bir hekayə də yazmışdım. İnstitut qəzetində dərc olunmuşdu. Adı da "Dəli Kür" idi. Romanın yazılmasına məni cəlb edən cəhətlərdən biri də - Qori seminariyasının mədəniyyət tariximizdəki yeri olmuşdur. Yaxşı bilirik ki, bu

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.318



seminariyanı kimlər bitirib!"[1] Bununla da İsmayıl Şıxlı öz topladığı həyat materiallarının onun yaradıcılığında, xüsusilə "Dəli Kür" əsərində mühüm rol oynadığını nəzərə çatdırırdı. İsmayıl Şıxlı tarixi roman təcrübəsindən və yazıçının tərcümeyi-halının onun yardıcılığında rolu məsələsindən danışarkən xalq dastanlarından, Tolstoyun, Şoloxovun, Floberin yaradıcılığından çox şey öyrəndiyini (təkcə özünün deyil, digər yazıçıların da öyrəndiyini) qeyd etməklə yanaşı[1], Çəmənzəminli və Ordubadi yaradıcılığını da yüksək qiymətləndirir. Onların həyat və yaradıcılıq yolunu böyük məktəb, örnək məktəb hesab edir. "Ordubadinin zəngin həyat və yaradıcılıq yolu böyük, nümunəvi məktəbdir. Yenə əvvəlki fikrimə qayıtmaq istəyirəm. Yazıçının tərcümeyi-halının yaradıcılığındakı rolu məsələsinə. Təbiidir ki, Ordubadi Cənubi Azərbaycan inqilablarının iştirakçısı və şahidi olmasaydı, "Dumanlı Təbriz" kimi monumental roman yaranmazdı. "Gizli Bakı", "Qılınc və qələm" əsərləri Ordubadinin çox geniş yaradıcılıq diapozonunu aydın gös-

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.318-319
[1] Yenə orada. s.319

tərir. "Dumanlı Təbriz"dən sonra "Şamo", "Səhər", "Gələcək gün" yaranmışdır. Mən bu əsərləri Ordubadi ənənələrindən ayırmır və həmin ənənələrin inkişafı və kamilləşməsi hesab edirəm"[1] .

İsmayıl Şıxlı M.S.Ordubadidən söhbət düşmüşkən ona birtərəfli münasibətlərin olmadığını da unutmur və bu münasibətlərin özünə aydınlıq gətirir. Vaxtilə M.S.Ordubadinin tənqid olunduğunu, ona Düma estetikasının davamçısı kimi yanaşıldığını, sonradan bu qəbildən olan tənqidçilərin onun məddahlarına çevrildiyini ədəbi mühitlə bölüşür. "Düzdür, Ordubadidə macəraçılıq meylləri də var. Təsvir və hadisələrə münasibətində buna rast gəlmək mümkündür. Onda Valter Skott, hətta Düma ənənələrinin təsirlərini axtarmaq da olar. Buna baxmayaraq, Ordubadi böyük vətəndaş-yazıçıdır. Onun tarixə münasibəti düzgündür. Çünki bu münasibət xalqın keçmişinə məhəbbət, bu gününə, gələcəyinə inam yoludur. Bu yol–səkkiz əsr əvvəlki hadisələrə müasir ictimai ideallar mövqeyindən baxmaq yoludur"[2].

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.319
[2] Yenə orada. s.319



İsmayıl Şıxlı müasir qəhrəman probleminə onun müasir ideallarla yaşayan və bu günün tələblərinə cavab verən keyfiyyətlərinə bədii nümunələr əsasında münasibət bildirir. Məsələn, müasir qəhrəman məsələsinə o, müxtəlif istiqamətlərdən yanaşaraq aydınlıq gətirir. Bu mənada İsmayıl Şıxlının müasirlik haqqında fikirlərinə diqqət yetirək: "Müasir qəhrəman-müasir ideallarla yaşayan, bu günün tələblərinə cavab verə bilən şəxsiyyətdir"[1]. Yaxud, "... Ədəbiyyat belə fədakar, cəfakeş, sağlam ideallarin daşıyıcısı olan qəhrəmanlarsız yaşaya bilməz"[2]. Digər bir məqam: "Əslində, insanın böyüklüyü konfliktlərdə açılır: ən çətin, gərgin hallarda insanın daxilində hətta özünə aydın olmayan yeni yüksək keyfiyyətlər baş qaldırır"[3]. Digər bir məqam: "Ədəbiyyat – insanşünaslıqdırsa, bu cəhətləri ön plana çəkə bilməlidir"[4].

İsmayıl Şıxlı nəsrimizdə nəsillər estafetinin davam etdiyini, nəsrimizdə yeni gənclərin yetişdiyini ədəbiyyatımızın nailiyyətləri hesab edir. O, özündən əvvəl

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.320
[2] Yenə orada. s.321
[3] Yenə orada. s.321
[4] Yenə orada. s.321

nəsrimizə, geniş mənada ədəbiyyatımıza gələn yazıçıları – H.Mehdini, Mir Cəlalı, S.Rəhimovu, M.İbrahimovu, Əbülhəsəni, Ə.Vəliyevi istedadlı yazıçı kimi qiymətləndirir və sonrakı nəslin onlardan çox şey öyrəndiyini, bununla da irəli getməyə çalışdıqlarını yaxşı mənada etiraf etmişdir[1]. Bununla da ədəbiyyatın bədii-estetik tələblərinin genişləndiyi, nəsrimizin yeni keyfiyyətlərlə zənginləşdiyi həssas və obyektiv bir şəkildə qiymətləndirilmişdir. Deməli, İsmayıl Şıxlı ədəbi nəslin nümayəndələrini və onların xidmətlərini unutmur, varislik prinsipinin ədəbi nəsillər arasında qorunduğunu ürəkaçıqlığı ilə qiymətləndirir. Onun fikrincə, "Nəsrimizdə nəsillər estafeti davam edir. Hazırda savadlı, geniş dünyagörüşlü, ağıllı yazıçılarımız yetişir"[2]. İsmayıl Şıxlı həmin yazıçılar sırasında Anarın, Elçinin, İsi Məlikzadənin, Sabir Azərinin, Sabir Əhmədovun və digərlərinin adlarını çəkir. Onların yaradıcılığının müsbət cəhətlərini belə xarakterizə edir: "... həyatın dramatikliyini, daxili hərarətini göstərə bilirlər. Süni möhtəşəmlik və monumentallıqdan, gu-

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.323
[2] Yenə orada. s.324



rultulu pafosdan uzaqdırlar. Həyata münasibətləri müəyyən mənada mikromünaibətdir, lakin onlar belə mühitdə də ciddi şey görə bilirlər. Eyni zamanda, həmin gənclərin əsərlərində bir narahatlıq, insani kədər, meşşanlığa, eynilәşməyə, xırdaçılığa qarşı etiraz var"[1].

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.324-325

# Ədəbi tənqidə tənqidi baxış

İsmayıl Şıxlı o tipli yazıçılardandır ki, o, ədəbi tənqid haqqında, təbii ki, tənqidçilər haqqında fikir yürüdür. Ədəbi mühitdəki boşluğu aradan qaldırmaq üçün tənqidçilərimizin yüksək səviyyəli məqalələr yazmağını, onların istedadlı yazıçıların yazdıqları əsərləri təbliğ etmələrini vacib sayır. Bunun üçün tənqidçinin özü də istedadlı olmalıdır. Bu mənada İsmayıl Şıxlı istedadlı yazıçı olmaqla yanaşı, ədəbi mühiti və onun bütün incəliklərini dərindən bilən tənqidçi idi. Ona görə də tənqidçi-filosof Asif Əfəndiyev onunla nəsrimiz barəsində polemika apararkən ədəbi tənqid barədə İsmayıl Şıxlının mövqeyini, fikrini bilmək istəyirdi. Bu mənada tənqidçi barədə açıq da-



nışmaqla İsmayıl Şıxlını açıq münasibətə dəvət edirdi, buna da nail olurdu. Asif Əfəndiyev deyirdi: "Bizim ədəbi tənqidə istedadlar az gəlir. Tənqidçilik xüsusi istedad tələb edir. Hamı tənqidçi ola bilməz. Mənə belə gəlir ki, tənqidçidə üç cəhət birləşməlidir – filosofluq, yazıçılıq və cəngavərlik. Bizdə isə çox vaxt bunların biri olmur. İndi ədəbiyyatımızın ətrafında nağılçı tənqidçilər, simasız tənqidçilər də dolanır. Bəziləri fəğan edirlər ki, yazıçı bizi öz əsiri edib. Bunlara deyən gərək, əsl tənqidçi üçün yazıçı heç vaxt səcdəgah ola bilməz. Belinskinin mənəvi aləminə Şekspir, Bayron, Puşkin, Qoqol, Lermontov kimi nəhənglər sığırdı"[1].

İsmayıl Şıxlıdan Asif Əfəndiyev tənqid barədə soruşanda onun (İsmayıl Şıxlının) cavabı düşünülmüş və duyulmuş, həssaslıq və təbiiliyin vəhdətini özündə birləşdirən cavab olmuşdur. İsmayıl Şıxlının fikrincə, "... bizdə dörd tip tənqid var: birinci, ədəbi prosesdən təcrid edilmiş akademik tənqid – bu tənqid ədəbi prosesə təsir gücündən məhrumdur; ikinci, ədəbi prosesi izləməyə çalışan, lakin səviyyəsi olmayan, şərhçi tənqid; üçüncü,

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.326

məddah tənqid; dördüncü, ədəbi proseslə bağlı, cəsarətli, yüksək səviyyəli, vətəndaşlıq hissi ilə yaşayan əsl tənqid. Dördüncü tip tənqid, təəssüf ki, azdır. Halbuki ədəbiyyata yalnız belə tənqid istiqamət verə bilər"[1].

Ədəbiyyatımızın bu günü və sabahı İsmayıl Şıxlını həmişə düşündürüb, bu istiqamətdə vacib problemlərə onun tərəfindən cavab axtarılıbdır.

Ədəbiyyatın qarşısında ictimai məsələlərin həllinə kömək, bəşəriyyətin xilas olunması üçün aparılan mübarizələrdə düzgün istiqamət seçmək, düzgün yol seçmək vəzifəsi durur.

İsmayıl Şıxlı "yeni ədəbiyyat", "yeni nəsr" kimi mücərrəd, mübahisəli, metodoloji cəhətdən yanlış istilahların ortaya atılmasını yaradıcılıqda təhlükəli hal hesab edir. "Ona görə ki, əvvəla, yeni ədəbiyyat cəmiyyətin ictimai-siyasi həyatında böyük inqilabi dəyişikliklər yarananda meydana çıxır"[2].

İsmayıl Şıxlı Oktyabr inqilabından sonra yaranmış ədəbiyyata, altmışıncı il-

[1] Nəsr və zaman. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.326
[2] "Ulduz" jurnalının sorğusuna cavab. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.345



lərdə yaranmış ədəbiyyata münasibət bildirir, "ictimai-siyasi məzmunlu ədəbiyyatın inkarı və şübhə altına alınması kimi yanlış bir meylin – zərərli olduğunu" qeyd edir. İsmayıl Şıxlı bədii ədəbiyyatın təsvir və tədqiq etdiyi insanı ictimai-siyasi hadisələrdən təcrid etmir, insanı ictimai-siyasi hadisələrdən ayırmır, insanı ictimai mühitin məhsulu kimi ictimai-siyasi problemlərdən təcrid etmir. Onun fikrincə, "Hər şeydən əvvəl ona görə ki, dünyada mücərrəd, həyatdan, ictimai-siyasi hadisələrdən təcrid olunmuş insan yoxdur və ola da bilməz. İnsan ictimai mühitin məhsuludur. Onu ictimai hadisələrdən ayırmaq mümkün olmadığı kimi, bədii ədəbiyyatın əsas tədqiq və təsvir obyekti insan və onun bədii obrazı da cəmiyyətdən, ictimai problemlərdən təcrid edilə bilməz"[1].

İsmayıl Şıxlı ədəbiyyatın sabahı barədə ciddi düşünür və ədəbiyyata gələn gənclərdən konkret olaraq tələb edir. Onun tələbi belədir: "Mən istərdim ki, ədəbiyyata gələn gənclərimiz sənətin daha böyük yollarına çıxsınlar. Cılız mövzu-

[1] "Ulduz" jurnalının sorğusuna cavab. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.346

lardan, cılız insanların təsvirindən uzaqlaşsınlar, dövrümüzün böyük məsələləri ilə səsləşən yetkin əsərlər yazsınlar"[1].

İsmayıl Şıxlı müasir Azərbaycan şeirində və nəsrindəki meyllər barədə də maraqlı mövqedə durur, konkret fikir bildirir. Əlbəttə, o, ədəbi yaradıcılığa canlı bir proses kimi yanaşır. Bu prosesdə həmişə təkmilləşmə, yeniləşmə getdiyini də təsdiq edir. Eyni zamanda ədəbiyyata gələn yeni nəslin yeni yaradıcılıq maneralarını, yeni təsvir üsullarını normal bir hal kimi qəbul edir. O, ədəbiyyata gələn yeni nəslin "novatorluğuna" iki baxımdan qiymət verir. Birincisi, "Əgər bunlar həqiqi yaradıcılıq axtarışları məqsədini daşıyırsa, "novatorluq" xatirinə edilmirsə öz xeyirli bəhrəsini verir. Bizim şeir və nəsrimizdə də belə bir proses gedir. Gənclərimiz fikrin poetik ifadəsinin daha kamil, daha incə olmasına çalışırlar. Onlar ən çox insanın psixoloji aləminin zənginliklərini açmağa meyl edirlər. Çalışırlar ki, klassik şeir formalarından, nəsrimizin, dramaturgiyamızın ənənələrindən bəhrə-

[1] "Ulduz" jurnalının sorğusuna cavab. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.346



lənsinlər. Yenə təkrar edirəm: bunlar öz müsbət təsirini göstərir"[1].

İkincisi, "Lakin elə şair və nasirlər də tapılır ki, öz poetik istedadsızlığını gizlətmək üçün yenilik adı altında sənətin əbədi və əzəli qanunlarından qaçır, "yeni" istilahlar icad eləyirlər: "intellektual şeir", "primitiv şeir", "novator şair" və s. Unudurlar ki, tarix boyu əsl şairlər və sənətkarlar heç vaxt insana xas olan iki cəhəti: düşünmək və duymağı bir-birindən ayırmamışlar. İdrak və hiss həmişə vəhdətdə olmuşdur"[2].

Təbii ki, ədəbi yaradıcılıq elə bir prosesdir ki, onun nailiyyətləri, nəticələri tezgec görünür. Ədəbi yaradıcılıqda kimlər klassik ədəbiyyatımızın nailiyyətlərindən bəhrələnir və müntəzəm axtarışda olursa, onlar uğur əldə edirlər, ədəbi mühitdə öz yerlərini tuturlar.

İsmayıl Şıxlı ədəbiyyat tarixində əbədi yaşayanların tərəfində dayanır və onlardan həmişə gəncliyin faydalanmasını lazım bilir. Bunu bir daha onun fikri təsdiq edir: "Kökünə arxa çevirən xudbinlər isə

[1] "Literaturnaya Armeniya" jurnalının suallarına cavab. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, s.349-350

[2] Yenə orada. s.350

gec-tez ədəbi aləmdən çəkiləcək, onları yalnız ədəbiyyat tarixi ilə məşğul olanlar, lazım olsa, ötəri xatırlayacaqlar”[1].

İsmayıl Şıxlı ədəbiyyatda müsbət qəhrəman məsələsinə də münasibət bildirir, ona aydınlıq gətirir. Müsbət qəhrəman problemi həmişə ədəbiyyatın mübahisə və fikir müxtəlifliyi yaradan məsələlərindən biridir. Bəzən müsbət qəhrəman məsələsinə çox yanlış və bəsit bir şəkildə yanaşılmış, nəticədə ədəbiyyatda kor-koranə müsbət qəhrəman obrazı yaradılmışdır. Müsbət qəhrəman məsələsində yanlış mövqe tutanlara İsmayıl Şıxlı çox dəqiq bir cavab verir: “Onlara elə gəlir ki, müsbət qəhrəman hər şeyi dərhal yerindəcə həll edir, insana xas olan sarsıntılardan, ziddiyyətli çarpışmalarda çəkilən iztirablardan, qüsurlardan uzaq bir varlıqdır, bəlkə də fövqəlbəşər bir insandır. Bu cür yanlış və sxematik anlayışa istinad edənlərin yaratdığı müsbət qəhrəmanlar müqəvvaya çevrilirlər. Həmin qəhrəmanların yaşadığı mühit o qədər səthi və hamar təsvir edilir ki, əsərin əvvəlindən baxanda sonu aydın görünür. Buna görə də oxucunu maraqlandırmır, müsbət qəhrəman isə istehzalı təbəssümlə qarşılanır”[1]. İsmayıl Şıxlı müsbət qəhrəman necə yaranmalıdır, onun hərəkəti, düşüncəsi, mövqeyi, əqidəsi necə olmalıdır məsələlərinə də dəqiq izahlar verir. İsmayıl Şıxlıya görə, “Müsbət qəhrəman yazıçının istəyindən yox, cəmiyyətin, həyatın özündən, ziddiyyətlərindən yaranmalıdır. O, yaşadığı dövrün, zamanın aparıcı ideyalarından qüvvət alaraq, sərbəst hərəkət etməli, deyilənlərə kor-koranə inanmamalı, analitik təfəkkürə malik olmalı, öz fikri, öz sözü, öz düşüncəsi olmalıdır. O hər cür ədalətsizliyə, əyriliyə, qanunsuzluqlara qarşı amansızcasına çarpışmalıdır. Bu döyüşlərdə qəhrəman məğlub da ola bilər, məhrumiyyətlərə də düçar olar, amma əqidəsindən dönməz. Bu o zaman mümkündür ki, qəhrəman, uğrunda vuruşduğu ideyanın doğruluğuna ən əvvəl özü inansın və buna başqalarını da inandırsın. Heç şübhəsiz, bu məsələlər yazıçılarımızı həmişə düşündürmüş, düşündürür və gələcəkdə də düşündürəcəkdir”[2].

[1] “Literaturnaya Armeniya” jurnalının suallarına cavab. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, s.350



[1] Həyatın tələbi. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s.355
[2] Yenə orada. s. 355

İsmayıl Şıxlı yazıçılarımızın müasir mövzuda əsər yazmalarını da ədəbi mühitdə mühüm bir hadisə kimi qiymətləndirir. Hiss olunur ki, İsmayıl Şıxlı təkcə yazmır, təkcə yazıçılıq etmir, o, ədəbi prosesin hər anını və dəqiqəsini izləyir. Ədəbi prosesin uğurlarına sevinir, problemlərinə şərik olur. Bunu onun mövqeyi təsdiq edir: "İndi yazıçılarımızın böyük əksəriyyəti müasir mövzularda əsərlər yazır. Hətta müəyyən dövr tarixi əsərlər yazan yazıçılarımızın çoxu yenidən müasir mövzuya qayıtmışlar"[1]. O daha sonra davam edir: "... Onlardan bir neçəsinin adını çəkə bilərəm. Xalq yazıçısı İlyas Əfəndiyev kənd həyatından bəhs edən "Pərican" pyesinin üzərində işləyir. İsa Hüseynov "Eşq dəlisi" adlı romanını tamamlamış və "Azərbaycan" jurnalına təqdim etmişdir. Nəriman Həsənzadə "Kimin sualı var?" poemasını bitirmişdir. ... Bəxtiyar Vahabzadə Cənubi Azərbaycan mövzusuna həsr etdiyi poema üzərində işləyir. Əlbəttə, bu adların sayını artırmaq da olar"[2].

İsmayıl Şıxlı öz həyat və fəaliyyətində olduğu kimi, ədəbi mühitə münasibətdə

[1] Həyatın tələbi. – İsmayıl Şıxlı. Daim axtarışda. B., Yazıçı, 1988, s. 355
[2] Yenə orada. s. 355-356



də ali, ülvi duyğularla, qayğıkeşliklə, sənətə düzgün qiymət verməklə, inam, əqidə və məslək sahibi olmaqla ədəbi mühitin inkişaf etməsinə xidmət göstərmişdir.

# M Ü N D Ə R İ C A T

*Ədəbi proses*
*və tənqidçi mövqeyi* ..................................... *3*

*Ədəbi proses*
*daim inkişafda olmalıdır* .......................... *11*

*Ədəbi proses və*
*yaradıcılıq məsuliyyəti* ............................ *18*

*Dünya ədəbiyyatı*
*tənqiddə* ...................................................... *78*

*Yazıçı və zaman*
*problemi* ...................................................... *97*

*Ədəbi tənqidə*
*tənqidi baxış* ........................................... *108*



Buludxan Əziz oğlu Xəlilov

# *İSMAYIL ŞIXLININ ƏDƏBİ – TƏNQİDİ GÖRÜŞLƏRİ*

**Bakı - 2014**

Çapa imzalanıb: 31.01.2014
Format: 84x90 1/32
Ofset çap üsulu
Fiziki çap vərəqi: 3,75 c.v.
Sifariş: 42
Sayı: 500